

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Baykal-Amur Magistralının tikintisi Heydər Əliyevin misilsiz xidmətlərinin nəticəsidir**



12

# Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz!



2

**Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib**

SƏS

№ 120 (6803)

12 iyul 2023-cü il.
Qiymәti 60 qəpik

# Tovuz döyüşlərindən başlanan Zəfər yolumuz



5

## NATO+İsveç=Türkiyə




8

## Geosiyasi müstəvidə davam edən İKİLİ STANDARTLAR




10

## BQXK-nın səmərəsiz fəaliyyəti - Azərbaycanın suverenliyinə qarşı hörmətsizlik




6



## Qərb Ərdoğana HƏ dedi: Tələ, gizli razılaşma, yoxsa KİŞİ sözü?

6

## Leonid Kalaşnikov: "Danışıqlar prosesində Bakı tamamilə ədalətlidir"



14

# Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz!

## Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib



### Prezident: "Beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qətnamələrinə bel bağlamaq olmaz"

İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib. Dövlətimizin başçısı müşavirədə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, ilin əvvəlində verilən tapşırıqların yerinə yetirilməsi ilə bağlı bir çox addımlar atılıb. Dövlət başçısı bildirib ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib: "İlin altı ayı arxada qalır. Müəyyən dərəcədə yekunlar haqqında danışmaq olar. Halbuki əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcəkdir. Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi.

Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, halbuki mütləq rəqəmlər o qədər də böyük deyil. Ancaq qeyri-neft sektorumuz və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıbdır. Qeyri-neft sənayemiz 6,5 faiz artıbdır və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıbdır.

Bununla bərabər, bizim maliyyə vəziyyətimiz böyük dərəcədə yaxşılaşıb, bunun bir çox səbəbləri var. İlk növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi - bütün bu amillər imkan verdi ki, ilin ortasında biz büdcəyə yenidən baxaq və dürüstləşmə aparaq. Bu, çox sevindirici haldır, çünki proqnozlardan xeyli dərəcədə böyük vəsait toplanmışdır. Onsuz da bizim builki dövlət büdcəmiz rekord həddə çatmışdır, 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. Ancaq ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, biz təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edək və bunu etdik. Bu gün bizim büdcəmiz 36 milyard manatdan çoxdur. Əlbəttə, bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, bir daha demək istəyirəm ki, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və bizim hərbi gücümüzü artıraq.

Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın gücləndirilməsinə. Yəni, ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir."

Dövlətimizin başçısı qeyd edib ki, bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır: "Təbii ki, ilk növbədə, infrastruktur layihələri icra olunur. Çünki bu layihələr icra edilmədən biz vətəndaşları qaytara bilmərik. Eyni zamanda, yaşayış evlərinin inşası sürətlə gedir. Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq.

Əlbəttə ki, biz, bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. Onu da bildirməliyəm ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir.

Gələn ilin investisiya proqramı hazırlananda, - yaxın gələcəkdə biz artıq gələn ilin büdcəsini də müzakirə etməyə başlayacağıq, - əlbəttə ki, Qarabağın və Şərqi Zəngəzurun investisiya xərclərinə baxacağıq və elə etməliyik ki, maliyyə qıtlığı ucbatından vaxt itirməyək. Yenə də deyirəm bizim maliyyə imkanlarımız genişlənir. Amma o demək deyil ki, bizim bu sahədə problemlərimiz yoxdur. Ölkə qarşısında duran bir çox vəzifələr var.

Ardı Səh. 3

# Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz!

## Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib

Əvvəli Səh. 2

İnfrastruktur layihələri təkcə Qarabağda, Şərqi Zəngəzurda yox, bütün ölkə üzrə həyata keçirilir. Sənaye inkişafı ilə bağlı və digər məsələlərlə bağlı bizim çox böyük maliyyə resurslarımız cəlb edilir, səfərbər olunur. Əlbəttə ki, biz ayrılan hər bir vəsaitə böyük qənaətlə yanaşmalıyıq və şəffaflıq tam təmin edilməlidir - həm büdcə gəlirlərinin toplanmasında, həm də xərclənməsində. Qeyd etdiyim kimi, büdcəyə əlavə edildikdə ikinci əsas istiqamət hərbi gücümüzün artırılmasına istiqamətləndirilmişdir. Bu da təbiidir. Beynəlxalq vəziyyət bəllidir. Mənim uzun illər dediyim sözlər bu gün əyani şəkildə özünü büruzə verir. Dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq işləmir. Beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə bel bağlamaq olmaz. Biz həmişə hüququn tərəfdarı idik, o cümlədən beynəlxalq hüququn. Biz həmişə ədalətin tərəfdarı idik. Bu gün də ədalətin və beynəlxalq hüququn tərəfdarıyıq və beynəlxalq müstəvidə bu mövqeyi müdafiə edirik. Həm bir ölkə kimi, həm də 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının sədri kimi və nazirlər səviyyəsində son toplantı bir daha onu göstərdi.



## Prezident: "Xarici şirkətin heç kimdən icazə almadan ikinci tullantı gölü qurması ciddi araşdırılmalıdır"



Ancaq biz görürük ki, dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz demək olar ki, bunu hər gün görürük, hər gün. Böyük dövlətlər, hansılar ki, beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar. Ölkələr deyəndə mən bütün böyük ölkələri nəzərdə tuturam. Necə deyərlər, hərəsi öz xətti ilə ya konvensiyaları pozur, ya beynəlxalq hüquq normalarını pozur, ya da oturuşmuş beynəlxalq davranış qaydalarını pozur və bunu heç gizlətmir də. Ona görə, əlbəttə ki, biz, ilk növbədə, özümüzü qorumaq üçün, öz müstəqilliyimizi qorumaq üçün, seçimimizi qorumaq üçün, həyat tərzimizi qorumaq üçün, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq. İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz dayanmadan bu istiqamətdə çox ciddi addımlar atmışdıq və mən bunu artıq bildirmişəm, bir də demək istəyirəm, bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Həm döyüş qabiliyyəti, həm silah və texnika ilə təchizat baxımından daha da güclü olacağıq, çünki bu proses dayanmır və dayanmamalıdır. Mən demişəm, iki istiqamət üzrə - hərbi potensial və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdır biz o qədər də ayıracağıq.

Biz bu siyasəti aparmaqla ölkəmizin qüdrətini artırırıq. Çünki bu gün dünyada güc amili ön plandadır və güclə hesablaşırlar, gücdən çəkinirlər. Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz. Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi qoruya bilmişik və maraqlarımızı qoruya bilmişik, daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq."

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, bundan sonrakı illərdə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlər plan üzrə gedir. Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır:

"Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər. Hər halda mən hesab edirəm ki, belə imkanlar var. Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük. Ancaq yenə də deyirəm, hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir.

## İlham Əliyev: "Polisə daş atmaq heç kimə şərəf gətirən hərəkət deyil"

Son müsbət məqamlardan biri odur ki, Ermənistan tərəfinin mövqeyində müsbətə doğru hərəkət var. Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb. Bu, müsbət hal kimi qiymətləndirilməlidir. İndi sıra gəlib çatıb ki, eyni sözlər kağız üzərində də öz təsdiqini tapsın, imzalar atılsın və münasibətlər yaradılsın. Hər halda biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik."

Prezident İlham Əliyev daha sonra deyib: "Bir məsələyə də mən toxunmaq istərdim. Bu da ekoloji tarazlıqla bağlı olan məsələdir. Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi. Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda, o vaxt işğal edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar. Yəni, bütün bu peyk görüntüləri bizdə var. İndi transsərhəd təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına, bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar. Ona görə mən hesab edirəm ki, Azərbaycan Hökuməti də burada kənarda qalmamalıdır. Bizim vətəndaş cəmiyyətimiz bu addımı atır, çox yaxşı, amma baxmaq lazımdır, rəsmi xətlə, yəni, dövlət xətti ilə hansı təşkilatlara hansı müraciətlər ünvanlanmalıdır ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin. Əgər onlar hansısa müəssisə yaratmaq istəyirlərsə, bizim buna, əlbəttə ki, münasibətimiz ola bilməz. Onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, orada təhlükəli maddələrdən istifadə ediləcəksə və bu maddələr yenə də Araz çayına, Oxçu çayına töküləcəksə, bu, bizim məsələmizdir. Biz buna necə imkan verə bilərik? Əlbəttə ki, biz bu məsələləri qanun çərçivəsində, beynəlxalq konvensiyalar çərçivəsində, diplomatiya çərçivəsində mütləq diqqətdə saxlamalıyıq. Ona görə bu tapşırığı verirəm, siz baxın, hansı hüquqi yollar var ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin.

Bununla əlaqədar deyə bilərəm ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı ilə bağlı mənim göstərişimlə dövlət proqramı qəbul edilmişdir. Proqram mətbuatda dərc edilib, hər kəs götürüb oxuya bilər. Bu, Naxçıvanın uğurlu sosial-iqtisadi inkişafını qısa müddət ərzində təmin edə biləcək proqramdır və əminəm ki, tam icra ediləcək. Çünki bu proqram bizim öz resurslarımıza əsaslanıbdır. O cümlədən mən nə üçün bunu indi dilə gətirirəm, orada Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi "yaşıl enerji" zonasına çevrilməsi məsələsi mənim tərəfimdən qoyulmuşdur.

Ardı Səh. 4

# Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz!

## Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib

**Əvvəli Səh. 3**

Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. Orada günəş və külək elektrik stansiyalarının inşası da nəzərdə tutulur - ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını "yaşıl enerji" ilə təmin edəcəyik, həm də qonşu ölkələrə də "yaşıl enerji"ni ixrac edəcəyik. Bütün bunları qeyd edərkən görürük ki, ölkəmizin böyük hissəsi artıq rəsmən "yaşıl enerji" zonası elan edilib və bunun fonunda Gədəbəy rayonunda baş vermiş hadisə tamamilə qəbuledilməzdir. Mən hesab edirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ən azı səhlənkarlığa yol verib, nəzarətsizlik nümayiş etdirib, passiv müşahidəçi kimi çıxış edib və bunun nəticəsində xarici investor bizim təbiətimizi zəhərləyib. İnsanlar haqlı olaraq öz etiraz səsini ucaldıblar, amma onların səsinə baxan olub? Yox! Bir gün, iki gün, üç gün, beş gün, hara baxırdı Ekologiya və Təbii Sərvətlər Nazirliyi? Bilmirdimi ki, belə problem var? Ya bilirdi gözünü yumurdu, ya da bilmirdi. Hər ikisi qəbul edilən deyil. Düzdür, vətəndaşların bir hissəsi təxribatçıların fitnəsinə uyaraq ədəbsiz hərəkətlər ediblər, qanunsuz hərəkətlər ediblər və bu da dözülməzdir, qəbuledilməzdir. O təxribatçıların bəziləri Azərbaycanda, bəziləri xaricdə gizlənir. Azərbaycandakılar artıq müəyyən edildi və bir neçəsi məsuliyyətə cəlb olunmuşdur. Xaricdəkiləri də biz məsuliyyətə cəlb edəcəyik. Heç kim, necə deyərlər, fikirləşməsin ki, biz bunu unutmuşuq. Azərbaycanda xaos, özbaşınalıq, təxribat xarakterli addımlar 1993-cü ildə başa çatıb. Əgər kimsə unudubsa, biz xatırlada bilərik. Ona görə vətəndaşlar da həm mədəniyyət göstərməlidirlər, necə deyərlər, mərifət göstərməlidirlər, qanuna tabe olmalıdırlar, polisə daş atmamalıdırlar, polisə daş atmaq heç kimə şərəf gətirən hərəkət deyil. Bu, birincisi. İkincisi, bu, cinayətdir. Əgər Azərbaycan polisi dözümlülük göstərirsə, o demək deyil ki, kim istəyir polisə daş ata bilər. Bu, qətiyyən mümkün deyil. Mən hər kəsə deyirəm, burada biz kiminsə nazı ilə oynayası deyilik, necə lazımdır, əgər lazım bilsək, kimi lazımdır, elə cəzalandırarıq ki, peşman olar.

**Prezident: "Əminəm ki, Naxçıvanın gələcək inkişafı ilə bağlı dövlət proqramı tam icra ediləcək"**

Ancaq, eyni zamanda, bu hadisənin təbii səbəbi var idi. O da ondan ibarətdir ki, xarici şirkət buraya pul qazanmağa gəlib. Biz etiraz eləmirik, investisiya qoyubdur, iş yerləri yaradıbdır. Əlbəttə, onlar gəlib burada xeyriyyəçiliklə məşğul olmurlar ki, pul qazanmağa gəliblər. Amma bu o demək deyil ki, bizim təbiətimiz məhv olsun. O demək deyil ki, insanların örüş, otlaq sahələri zəbt edilsin. O demək deyil ki, heç kimdən icazə almadan ikinci tullantı gölü qursun. Kim onlara icazə verib? Görünür, ya Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə sövdələşiblər, ya da ki, onu özbaşına ediblər, ona görə ciddi araşdırılmalıdır. Prokurorluğa, digər aidiyyəti qurumlara bütün göstərişlər verilmişdir. Mən xəbər tutandan sonra zəng edib Baş nazirə dedim ki, mütləq komissiya yarat və göndər hadisə yerinə getsin. Yaxşı, bunu mən deməli idim? Ekologiya naziri özü bilmirdi ki, oraya getməlidir. Mən demişəm, gedin orada camaatla danışın, o torpağın, havanın nümunələrini götürün, beynəlxalq ekspertləri cəlb edin ki, - çünki nazirlik bir halda bu hadisənin səbəbkarı olub, ola bilər ki, işi malalasın, - onlar rəy versinlər, bu yataqların istismarı nə dərəcədə insanların sağlamlığına, təbiətə zərərlidir, ya zərərli deyil? Bu günə qədər cavab yoxdur. Bəli, Nazirlər Kabinetində müşavirə keçirilib, orada açıqlama verilib. O açıqlamanı oxuyan heç nə başa düşə bilməz ki, orada nə deyilib və o açıqlamanın məqsədi nə idi? İşi malalamaq, yaxud da ki, hansısa belə ümumi sözlərlə bu məsələyə diqqət yetirmək. Mən konkret tapşırıq vermişdim, konkret. Hanı ekspertizanın nəticələri? Nə qədər vaxt keçib? Bir aya yaxın vaxt keçib. Heç kim mənə məruzə etmir - Nazirlər Kabineti etmir, Ekologiya və Təbii Sərvətlər Nazirliyi etmir. Hesab edirlər ki, mən bunu unutmuşam. Yox, mən heç nə unutmuram. İndi yenə də deyirəm, polisə daş atan utanmalıdır - öz ailəsi qabağında, uşaqları qabağında, ailə üzvləri qabağında, ictimaiyyət qabağında. Çünki o eybəcər mənzərəni ictimaiyyət görüb. Ona görə mən tapşırıram, bir həftə vaxt verirəm, həm mənə, həm ictimaiyyətə məlumat verilməlidir və məsələ araşdırılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi nə üçün bu məsələyə diqqət yetirməyib, biganə qalıb və mən tapşırıq verəndən sonra gediblər, gəliblər, nəticə haqqında heç bir məlumat yoxdur.

Burada işləyən xarici şirkətlər və yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər. Hörmət etməyəcəklərsə, onların fəaliyyəti burada mümkünsüz olacaq. Baxmayaraq ki, pay bölgüsü haqqında saziş əsasında xarici investor Gədəbəydəki qızıl yataqlarını istismar edir, baxmayaraq ki, uzun illər burada çalışır, Azərbaycan qanunlarına, ekoloji tarazlığa - bütün bunlara hörmət edilməlidir. Onu da bildirməliyəm ki, bizim dövlət şirkətimiz "AzerGold" da qızıl yataqları istismar edir. Amma mənə verilən məlumata görə, o sahədə bütün ekoloji normalara riayət edilir. O cümlədən yerli icmalarla təmaslar qurulub, müxtəlif humanitar aksiyalar keçirilir, insanlar kütləvi surətdə işə cəlb olunub. Bax, bu yanaşma Azərbaycan şirkəti tərəfindən göstərilən yanaşmadır. O yanaşma isə xarici şirkət tərəfindən göstərilən yanaşmadır. Bu, dözülməzdir. Xarici şirkətin nümayəndələri də dəvət edilməlidirlər. Əgər bu günə qədər dəvət edilməyiblərsə, Nazirlər Kabinetinə onlar izahat verməlidirlər. Yenə də deyirəm, bir həftə ərzində mənə və ictimaiyyətə məlumat verilməlidir. Orada təbiətə, insanların sağlamlığına zərrə qədər təhlükə varsa, o fəaliyyət dayandırılmalıdır. Vəssalam!

Bu gün dünyada ekologiyanı korlayan şirkətlər müflisləşir. Onlar öz ölkələrində belə hərəkət edə bilərdilərmi, gedib göl qursunlar, oraya zibil, zəhər töksünlər. Onları orada ayaqlarından asardılar. Elə iş verərdilər ki, ömürlərinin sonuna qədər həbsxanada yatardılar. Amma burada hesab edir ki, nə istəyir onu da edir. Çünki gedib kiminsə görüb, kiməsə salam verib, gedib kiməsə nəsə pay verib. Bunun başqa izahatı ola bilməz. Dözülməz haldır - bütövlükdə həm oradakı təxribatçıların hərəkətləri, həm xarici şirkətin fəaliyyəti, həm də bizim nazirliyimizin fəaliyyəti. Yeganə olaraq burada özünü ləyaqətlə aparan Azərbaycan polisi idi. Onu hər kəs bilməlidir. İndi bəziləri ağızlarını büzürlər. Gedin, açın gözünüzü baxın, Amerika polisi ildə neçə nəfəri öldürür - 1000 nəfəri. Fransa polisi neçə nəfəri öldürür və nəyə görə öldürür? Bu yaxınlarda Fransa polisinin əməllərini bütün dünya gördü. Mən onlara bəraət qazandırmıram, o dözülməzdir. Əfsuslar olsun ki, insanları öldürən o polisin mütləq əksəriyyəti məsuliyyətdən yayınır. Bir müddətdən sonra onları ya ümumiyyətlə məhkəmədə buraxırlar, ya da ki, şərti iş verirlər. Bizim polis gecə-gündüz soyuqda, istidə, dağda asayişi qoruyur. Bizim Daxili Qoşunlarımız Qarabağda müharibə zamanı şəhid verib. İndi kimsə gəlsin, polisə ləkə vursun. Mən buna imkan verməyəcəyəm və hər kəs bunu bilsin - təxribatçılar, o təxribatlara uyanlar və bütün ictimaiyyət." Sonra müşavirə müzakirələrlə davam edib.

# "Ölkələrimiz arasında əlaqələrdə yeni səhifə açılıb"

## Prezident İlham Əliyev Almaniya Xarici İşlər Nazirliyinin dövlət nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin dövlət naziri Tobias Lindneri qəbul edib.**

Görüşdə ikitərəfli münasibətlərin inkişaf dinamikasının artdığı qeyd edildi, Prezident İlham Əliyevin bu ilin mart ayında Almaniyaya səfərindən sonra ölkələrimiz arasında əlaqələrdə yeni səhifənin açıldığı məmnunluqla vurğulandı.

Söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və sülhün əldə edilməsi istiqamətində ölkəmiz tərəfindən göstərilən səylərdən danışıldı. Enerji sahəsində əməkdaşlıq və bu əməkdaşlığın gücləndirilməsi, həmçinin Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış Anlaşma Memorandumu ilə bağlı fikir mübadiləsi aparıldı.

# Tovuz döyüşlərindən başlanan Zəfər yolumuz

**Azərbaycanının bayrağını yüksəkliklərdən-yüksəkliklərə qaldıran siyasi gücə, iradəyə malik Böyük Lideri, Sərkərdəsi və Prezidenti var. Bu güc, bu Sərkərdəlik Azərbaycan xalqını Müzəffər xalq kimi dünyaya tanıtdı, ZƏFƏR qazanmış xalq olaraq hərbi gücümüzü dünyaya göstərə bildik. Tariximizi yazmaqla dünya hərb tarixinə də yeni bir səhifə açdıq. Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində işğal altında olan ərazilərimizi düşmən tapdağından azad etdi və tarixi ədalət bərpa olundu. Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın işğaldan azad olunmasında böyük rol oynamış oldu.**

Azərbaycanın güclü və müasir ordusu qarşıda duran bütün vəzifələri həll edərək düşmənə məğlubiyyəti yaşatdı və gücsüz olduğunu, özgə torpağında hökmranlığın sonunun olmadığını bir daha göstərmiş oldu. Təbii ki, ermənilər Azərbaycan ordusunun gücünü dəfələrlə görmüşdülər və nə vaxsa məğlub olmaları qaçılmaz idi. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusunun qarşısında duruş gətirmələri ağılasığmaz idi.

Xatırlatmaq yerinə düşər ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi.

Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. Əlbəttə ki, ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Həmin döyüşlərdə ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin gücü öz sözünü demiş oldu. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun göstəricisidir. Əlbəttə ki, Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi.

### BÖYÜK QƏLƏBƏNİN BAŞLANĞICI

2020-ci ilin iyulun 12-si günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutdu. Bu gün biz həmin tarixdən qalib xalq olaraq danışırıq. Bu, Ermənistan Silahlı Qüvvələrinin növbəti dəfə təxribatı idi. Bu, Ermənistan tərəfinin Azərbaycana qarşı artilleriya hücumunun əvvəlcədən planlaşdırılmasını bir daha göstərmiş oldu. Ermənistanın keçmiş prezidenti Robert Köçəryan dekabr ayında verdiyi açıqlamada Tovuz döyüşlərinin Ermənistan Silahlı Qüvvələrinin təxribatı nəticəsində başladığını bildirmişdi.

Azərbaycan Silahlı Qüvvələrinin cavab



atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısı alındı. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Ordusunun dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edildi. Düşmən hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu, general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Elçin Mustafazadə, Nazim İsmayılov, Xəyyam Daşdəmirov, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov şəhid oldu. Ermənistanın artilleriya atəşləri nəticəsində Ağdam kəndinin 76 yaşlı sakini həlak oldu. Həmin günlərdə Ermənistan Silahlı Qüvvələri Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Əlibəyli və Hacallı kəndlərini ağır artilleriya silahlarından atəşə tutmağa başladılar. Daha intensiv atəş Ağdam kəndi istiqamətində oldu. Dondar Quşçu kəndinin ərazisinə isə 20-dək top mərmisi düşdü. Mərmilərdən ikisi dinc əhalinin yaşadığı əraziyə düşdü.

### ”AZƏRBAYCAN HƏM BEYNƏLXALQ MÜSTƏVİDƏ, HƏM ÖLKƏ DAXİLİNDƏ, HƏM MƏNFUR QONŞU İLƏ MÜBARİZƏDƏ ÇOX BÖYÜK BİR GÜCƏ ÇEVRİLİB”

Dünya bu döyüşlərə biganə qala bilmədi. Türkiyə Xarici İşlər Nazirliyi Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutması ilə bağlı bəyanat yaydı və Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Tovuz bölgəsinə hücumunu qətiyyətlə pislədi. Rusiya Xarici İşlər Nazirliyi dərhal atəşi dayandırmağa çağırdı. Gürcüstan prezidenti 12-13 iyul tarixlərində Azərbaycan və Ermənistan sərhədində baş verən silahlı qarşıdurmaya görə narahatlığını ifadə etmiş oldu. Pakistan, Qazaxıstan, Moldova, Yaponiya, Böyük Britaniya kimi dövlətlər öz münasibətlərini ifadə etdilər və hərbi əməliyyatların dərhal dayandırılmasına çağırdılar. Türk Şurası, GUAM, ATƏT və digər təşkilatlar Tovuz rayonunun artilleriya atəşinə tutulmasını və beləliklə, bölgədə gərginliyin artmasını qətiyyətlə pisləmiş oldular. Məhz ölkəmizə bu xarici dəstəkdən sonra Ermənistan cəmiyyətində ciddi xaos hiss olunmağa başladı.

Bu barədə də Prezident İlham Əliyev deyirdi: ”Beləliklə, bütün bu məsələlər bir daha onu göstərir ki, bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib. Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq. Bizim üçün bir nömrəli milli məsələ - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm - beynəlxalq təşkilatlarda, beynəlxalq kürsülərdən, ölkə daxilində. Çox da təkrarlamaq istəmirəm, amma bir şeyi istəyirəm, Azərbaycan xalqı bilsin ki, bu, milli məsələdir. Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil”.

Tovuz döyüşləri Azərbaycanın hərbi qələbəsi ilə bərabər, onun geosiyasi üstünlüyünü də açıq şəkildə göstərdi. Bu döyüşlər böyük qələbənin başlanğıcı oldu. Yaşından, tutduğu vəzifəsindən asılı olmayaraq, hər bir azərbaycanlı Vətən keşiyində dayanan, düşmənlə vuruşan əsgərə mənəvi, fiziki cəhətdən dayaq, arxa, ona silahdaş oldu. Yaranan hər bir çətin şəraiti gözə alaraq, vətənimiz Azərbaycanın ərazi bütövlüyünü canları və qanları bahasına olsa da belə qorumağa hazır olduqlarını göstərdilər. Azərbaycanın döyüşən əsgəri, hər birimiz sənin yanındıyıq, - dedilər. Ali Baş Komandanın əmrini gözləyirik. Üçrəngli ay-ulduzlu bayrağımızı işğaldan azad edəcəyimiz torpaqlarımıza tezliklə sancacağımıza inam sonsuz idi. Həsrətdən cadar-cadar olmuş Qarabağ torpağı yolumuzu gözləyirdi. Düşmən təxribatlarına cavab olaraq həyata keçirilən uğurlu hərbi əməliyyatlar böyük qələbəyə gedən yolun əsasını qoydu. 44 günlük Vətən müharibəsi torpaqlarımızı işğaldan azad etdi. Şəhidlərimizin - mübarizlərin, əliflərin, poladların, ilqarların və neçə-neçə vətən övladlarının qisası qiyamətə qalmadı.

### ”BU GÜN PRİORİTET MƏSƏLƏLƏRDƏN BİRİ ORDU QURUCULUĞU, DİGƏRİ İSƏ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPA EDİLMƏSİDİR”

44 günlük Vətən müharibəsində dünya bir daha erməni terrorunu, barbarlığını, vəhşiliyini görmüş oldu. Müharibə dövründə ermənilərin mülki, dinc insanları hədəfə alınmasının bir daha şahidi olduq. ”Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq”, - deyən Azərbaycan Prezidentinin bildirdiyi kimi, düşməni elə rəzil vəziyyətə qoyduq ki, onlar bizim qabağımızda diz çökdülər, ağ bayraq qaldırdılar və məcbur olub kapitulyasiya aktına imza atdılar. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir.

”Uğurlu iqtisadi siyasətimiz bizə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın. Bizim uğurlu iqtisadi siyasətimizi, ölkəmizin artan gəlirlərini nəzərə alaraq, bu yaxınlarda dövlət büdcəsinə əlavələr edilmişdir. Onsuz da bu ilin dövlət büdcəsi müstəqil Azərbaycan tarixində rekord büdcədir. Ancaq buna baxmayaraq, biz əlavə vəsaiti əldə edən kimi büdcənin artırılmasına yeni böyük məbləğdə vəsait ayırdıq və burada iki əsas istiqamət müəyyən edilmişdir - birincisi, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, ikincisi, hərbi potensialımızın gücləndirilməsi. Yəni, təkcə bu fakt özlüyündə onu göstərir ki, bizim üçün bu gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir”, - deyə Prezident çıxışlarının birində bildirib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır.

Şuşada, Füzulidə, Ağdamda və digər ərazilərimizdə görülən işlər Böyük Qayıdışımızı daha da yaxınlaşdırır. Zəngilan rayonun Ağalı kəndində də sürətlə görülən işlər bu şəhərin sakinlərini qoynuna aldı. Birinci ”Ağıllı kənd” pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. ”Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər”, - deyən Prezident insanlara, oraya qayıdacaq insanlara rahat şəraitin yaradılıcağını bildirmişdi.

Ağalı kəndinə əhalinin köçürülməsindən sonra Talış kəndinə köç başladı. Ağalı və Talış kəndindən sonra əzəli torpaqlarımızın sahibləri olan laçınlıların da bir qismi öz yurdlarına qayıtdılar. Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı həyata keçirilən layihələrin həyat keçirilməsində bir daha özünü göstərir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı İlham Əliyevin nəzarəti altındadır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# BQXK-nın səmərəsiz fəaliyyəti - Azərbaycanın suverenliyinə qarşı hörmətsizlik

Dövlət Sərhəd Xidmətinin iyulun 11-də yaydığı məlumata əsasən, "Laçın" dövlət sərhədindəki buraxılış məntəqəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus nəqliyyat vasitələrinə baxış keçirərkən dəfələrlə qanunsuz yolla müxtəlif növ qaçaqmalın keçirilməsi cəhdləri aşkarlanıb. Həmin qaçaqmallar sırasında mobil telefonlar və onların ehtiyat hissələri, 1000-dən çox siqaret qutusu və 1000 litrdən çox benzin də yer alıb. Hazırda qeyd edilən faktlarla əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi açılıb və zəruri istintaq tədbirləri həyata keçirilənə qədər "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsindən keçid müvəqqəti olaraq dayandırılıb.

AZƏRTAC özünü bitərəf, mülki şəxslərə humanitar yardım göstərən təşkilat kimi təqdim edən Beynəlxalq Qırmızı Xaç Komitəsinin səmərəsiz fəaliyyətinə nəzər salır. Komitə öz fəaliyyəti ilə beynəlxalq humanitar hüquqa hörməti təşviq etdiyini bəyan edir. Lakin 30 illik münaqişə dövründə, eləcə də postmüharibə reallığında BQXK-nın Azərbaycana münasibətdə ciddi və səmərəli fəaliyyətinə şahid olmamışıq, yalnız kosmetik fəaliyyət imitasiyası müşahidə edilib. İşğala və təcavüzə məruz qaldığımız illər ərzində qurumun Ermənistanın dövlət səviyyəsində törətdiyi beynəlxalq humanitar hüquq pozuntularına dair heç bir narahatlıq ifadə edən mövqeyi, yaxud əməli fəaliyyəti olmayıb. Əksinə, proseslərdə tərəf kimi çıxış edən BQXK-nın müharibə və ya postmünaqişə dövründə hərbi əməliyyat bölgələrində kəşfiyyat xarakterli məlumatları Ermənistana ötürməsi ilə bağlı ciddi və əsaslandırılmış şübhələr mövcuddur. Xüsusilə qurumun bölgədəki fəaliyyətinə Azərbaycana dost olmayan ölkələrin vətəndaşlarının, əməkdaşlarının məqsədli formada daha çox cəlb edilməsi bu şübhələri daha da möhkəmləndirir. Bu isə artıq BQXK-nın özünün məqsədlərini və həddini aşdığını, Azərbaycanla təşkilat arasında hüquqi bazis üzrə öhdəliklərini pozduğunu göstərir.

Azərbaycan BQXK-ya etimad edib və mülki şəxslərin Xankəndidən Ermənistana tibbi təxliyəsi üçün lazımi şərait yaradıb. Lakin Azərbaycanın xoş niyyətindən sui-istifadə edilir. Belə ki, BQXK-ya aid olan nəqliyyat vasitələri ilə qaçaqmalçılıqla məşğul olurlar. Belə qaçaqmalçılıq halları barədə dəfələrlə rəsmi kanallar vasitəsilə BQXK-ya xəbərdarlıq edən Azərbaycan bu halların dayandırılmasını tələb edib. Lakin təəssüf ki, BQXK tərəfindən ciddi tədbirlər görülməyib. Bu, Azərbaycan qanunvericiliyinin pozulması və ölkəmizin etimadından sui-istifadə olmaqla yanaşı, BQKX-nın etibarlı tərəfdaş kimi beynəlxalq imicinə ciddi zərbə vurur. Bununla BQXK, eyni zamanda, Azərbaycanın suverenliyinə qarşı hörmətsizlik edir. Bu, qəbuledilməzdir. Qeyd edək ki, BQXK Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində fəaliyyət göstərən yeganə beynəlxalq təşkilatdır və təəssüf ki, öz mandatından sui-istifadə edir. BQXK-ya aid olan nəqliyyat vasitələrində öncədən bəyan edilmədən malların qanunsuz şəkildə sərhəd məntəqəsindən keçirilməsi, qaçaqmalçılıq faktları ilə təşkilat özünün daim istinad etdiyi humanitar yardım, zəruri humanitar yüklərin daşınması konsepsiyasını faktiki olaraq gözdən salır. Belə bir şəraitdə nümayəndəliyin hər hansı əks arqumenti və yersiz israrı təhrikedici və təxribatçı fəaliyyətdən başqa bir şey deyildir.

BQXK-nın Azərbaycan qanunvericiliyinə qarşı hörmətsizliyi qaçaqmalçılıq faktları ilə məhdudlaşmır. BQXK xəstələrin Xankəndidən Ermənistana tibbi təxliyəsi məsələsində də Azərbaycan tərəfinin insanlıq naminə xoş niyyətindən sui-istifadə edir. Belə ki, məlumatlara görə təxliyə edilənlərin heç də hamısı xəstələr deyil. Bəzi hallarda Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində yaşayan ermənilər sağlam olsalar belə, müxtəlif yollarla BQXK əməkdaşlarına yol taparaq, Xankəndidən Ermənistana getməyə çalışırlar. Bundan əlavə, BQXK tibbi təxliyə prosesini İsveçrə nömrəli nəqliyyat vasitələri ilə həyata keçirir. Bunun özü də qəbuledilməzdir. Əgər Beynəlxalq Qırmızı Xaç Komitəsinə aid olan nəqliyyat vasitələrində qaçaqmalçılıq faktları aşkar olunursa, onda ermənilərin müxtəlif yollarla BQXK-ya yol taparaq xəstə adı ilə Ermənistana gedib gəlməsi barədə deyilənlər də doğrudur. Bütün bu kimi hallar BQXK-nın öz imicinə ciddi zərbə vurur və Azərbaycanın bu təşkilata olan inamını sarsıdır.

Xatırladaq ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin Xankəndi ofisi 1992-ci il martın 3-dən fəaliyyət göstərən Bakı Nümayəndəliyinə tabe deyil. 1996-cı il iyulun 29-da Azərbaycan Respublikası ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında BQXK-nın və onun Azərbaycan Respublikası ərazisində yerləşən nümayəndəliyinin hüquqi statusu haqqında saziş imzalanıb. Sənədin ikinci maddəsində ifadə olunub ki, BQXK öz vəzifələrini yerinə yetirmək və qarşısına qoyduğu məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikasının ərazisində hüquqi şəxsə xas olan hüquqlardan istifadə edən nümayəndəlik təsis edir. Lakin o zaman Azərbaycanın qarşılaşdığı çətin situasiyadan istifadə edərək BQXK gələcək mənfur planlar naminə Xankəndində açılan ofisi Azərbaycana yox, Ermənistan nümayəndəliyinə bağladı. Baxmayaraq ki, Azərbaycanın Konstitusiyasının 11-ci maddəsinə görə ərazimiz vahiddir, toxunulmazdır və bölünməzdir. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndi, Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsi və Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə 1975-ci il 1 avqust tarixli Helsinki Yekun Aktında müəyyən olunmuş prinsiplərə görə dövlətlərin ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı əsas şərtdir. Xankəndi də Azərbaycanın ayrılmaz tərkib hissəsidir, bunu hətta Ermənistan baş naziri də dəfələrlə bəyan edib.

Belə bir vəziyyətdə, Beynəlxalq Qızıl Xaç Komitəsinin Xankəndi ofisinin təşkilatın İrəvan nümayəndəliyinə bağlı olması bütün hallarda beynəlxalq hüququn prinsiplərinin pozuntusu, Azərbaycanın suverenliyinə isə hörmətsizlik olmaqla daha bir davam edən pozuntudur və bu tendensiyaya da dərhal son qoyulmalıdır. BQXK Azərbaycanla imzalanan 1996-cı il sazişi ilə öhdəsinə götürüb ki, Azərbaycan Respublikasının dövlət mənafelərini nəzərə almalıdır. Sənədin 9-cu maddəsinin 13-cü bəndində isə ifadə olunur ki, Nümayəndəliyin üzvləri Azərbaycan Respublikasının qanun və qərarlarına onların dövlətin ərazisində qüvvəyə mindiyi vaxtdan hörmət etməyi öhdələrinə götürür. Sazişin 12-ci maddəsinə əsasən, Azərbaycan Respublikası BQXK-ya öz qərarının motivlərini bildirmədən 1961-ci il Vyana müqaviləsinin 9-cu bəndi ilə nəzərdə tutulan şərtlər və onlardan irəli gələn nəticələrlə konkret addımlar atmaq hüququnu özündə saxlayır.

Vətən müharibəsindən sonra Azərbaycan tərəfi dəfələrlə BQXK qarşısında Xankəndi ofisinin Bakı Nümayəndəliyinə tabe etdirilməsi məsələsini qaldırmasına baxmayaraq, Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycanın haqlı tələbini yerinə yetirməkdən boyun qaçırır. Hazırda baş verən hadisələr BQXK-nın Xankəndi ofisinin Bakı Nümayəndəliyinə tabe etdirilməsi məsələsini yenidən gündəmə gətirir, bunun baş verməyəcəyi təqdirdə, Xankəndi ofisinin bağlanmasını labüd edir.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Qərb Ərdoğana HƏ dedi: Tələ, gizli razılaşma, yoxsa KİŞİ sözü?

Artıq bir neçə gündür ki, qardaş Türkiyə ilə Qərb dünyası arasında görünməmiş siyasi dialoq yaranıb. Uzun müddətdir ki, ayrı-ayrı mövqelərdən çıxış edən bu iki siyasi qütb, NATO-nun Vilnüs Sammiti ərəfəsində əməllicə mövqe yaxınlığı göstərməyə başlayıblar. Hər şey Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğanın NATO zirvəsinə yola düşməzdən əvvəl hava limanında verdiyi bəyanatla başladı. Gündəlikdə İsveçin NATO-ya üzvlüyü üçün Türkiyənin razılığı məsələsi var. İsveçin NAO üzvlüyü elə kiritik hal alıb ki, artıq bütün Qərb dünyası bütün siyasi və iqtisadi resurslarını bu məsələnin tezliklə öz həllini tapmasına yönəldiblər. Bu məsələdə kilid açar isə heç şübhəsiz ki, qardaş Türkiyədir. Qərb israrlıdır: İsveç NATO-ya daxil olmalıdır. Ərdoğan da buna qarşılıq terror təşkilatlarına qərb dəstəyinin dayandırılmasını, İsveçin PKK terrorçularına qucaq açmaq siyasətinə son verməyi, ən əsas da rəsmi Ankaranın Avropa İttifaqına üzvük məsələsini həll etməyi əsas şərt kimi ortaya qoyub.

Bəli, İsveçin alyansa üzv olması üçün Türkiyənin razılıq verməsi barədə başlanan proseslər getdikcə böyük prosesə çevrilir. Artıq Türkiyə liderinin İsveçin alyansa üzvlüyü üçün məsələni Türkiyə parlamentində gündəliyə çıxarılacağı barədə razılıq verdiyi də açıqlanıb. Ərdoğan nəyin müqabilində İsveçə yaşıl işıq yandırdı? - bu əlbəttdə siyasi sirddir. Amma nəticələri gec tez ortaya çıxacaq əlbəttdə. Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğanın "Öncə Türkiyənin Avropa Birliyinə üzvlüyü üçün addım ataq, daha sonra İsveçin NATO-ya daxil olması üçün lazım olanı edərik" deməsi dünya mediasında da ajiotaj yaradıb. Ən maraqlısı idur ki, artıq dünyanın aparıcı ölkələri bu məsələdə R.T.Ərdoğanı dəstəkləyən bəyanatlar səsləndirməyə başlayıblar. NATO-nun baş katibi Stoltenberq Türkiyə liderinin bəyanatını dəstəklədiyini, Türkiyənin AB-nə üzv olmasının önəmini qeyd edib. Ağ Ev də rəsmi Ankaranın istəyini dəstəkləyəcəklərini elan edib. Amma bir məsələni də vurğulayıb ki, ABŞ F-16 məsələsində Türkiyəyə kömək edəcək. Avropa Birliyi məsələsi isə, mədəni şəkildə desək, "onluq deyil". ABŞ-ın bu mövqeyini yadımızda saxlayaq, çünki yazının gedişində bu məsələyə qayıdacayıq.

Beləliklə, hazırkı NATO sammitinin daha ciddi və tarixi qərarlara şahid olacağı qaçılmazdır. Amma dəhşət dərəcədə MARAQLIDIR: 50 ildən çoxdur Türkiyəni qapısında gözlədən, bezdirən, heç üzvlük üçün namizəd statusunu verməyən, daima rəsmi Ankaranı kağız üzərində müttəfiq sayıb amma heç zaman Avropa qitəsinə şamil etməyən Qərb indi niyə əl-ayağa düşüb ki?. İsveçə görəmi?- qətiyyən!. İsveç sadəcə bir bəhanədir. Avropa Birliyini az qala bir əsrə yaxındır ki, əsl XRİSTİAN KLUBUNA çevirən Qərb siyasətçiləri üçün Rusiya ilə kiritik qarşıdurma, hətta deyərdim həlledici müharibə öncəsi həm Türkiyənin dəstəyi hava və su qədər önəmlidir, həm də NATO sərhədlərinin Moskvanın "burnunun dibinə kimi" gətirilməsi. İsveç Rusiya ilə sərhəddir. Heç zaman heç bir hərbi bloka qoşulmayan skandinaviya ölkələrinin NATO-nun qucağına atılması birbaşa ABŞ-ın, daha dəqiq desək Co Baydenin ideyasıdır və Ukrayna da məhz C.Baydenin bu siyasi hikkəsi üzündən bu gün Ukrayna on dənə Suriyadan daha betər günə düsüb. Ötən əsrin 70-ci illərində Sovet İttifaqına gələn, Leonid Brejnev və Andrey Qromıko ilə görüşən nisbətən gənc senator C.Bayden elə o vaxtdan Qərbin Rusiya ilə sərhəd xəttini beynində cızıb bir kənara atmışdı. əvvəlcə Gürcüstanı seçmiçdi, sonra Gürcüstan variantı alınmadı, hakimiyyətə Vladimir Putinin "adamı" İvanaşvili gətirildi, Tbilisi bu məsələdə C.Baydenin işinə yaramadı.

Üstəlik bir vaxtlar demokratiya, qanun çarçısı kimi ad çıxaran, "Qərbin adamı" olaraq qəbul edilən Mixail Saakaşvili işlədilib atılan əski parçası kimi V.Putinin qəfəsinə peşkəş edildi, İvanaşvili onu həbsxanaya atdı, indi həbsxnada təhqir olunur, əlı salınır, döyülür və demək olar ki son günlərini yaşayır.

Ona görə də C.Bayden administrasiyası on minlərlə insanın qanı hesabına da olsa Rusiya ilə sərhədləri Ukraynadan keçirmək istəyir və bitmək bilməyən bu qanlı ssenari də o beynin "məhsuludur". O başqa məsələ ki, Boris Yeltsin kimi V.Putin də MDB üzərində bütün "ipləri boş buraxdı" və nəticəsi də budur. Hə, o başqa məsələ ki, son günlər həqiqi V.Putinin həyatda olub-olmaması sorğu sual olunur, onun oxşarları ilə "yaşadığı" deyilir və sairə...

Türkiyə liderinin Qərblə razılaşması ən çox Rusiya rəhbərliyini narahat edir. Bu vaxta qədər güclü ölkələrdən yalnız Türkiyə ilə haqq-salamı olan rəsmi Moskva, R.T.Ərdoğanın Qərblə anlaşmasından sonra tamamilə təklənəcəyindən bərk qorxur. Qərb koalisiyası Ərdoğana təkcə İsveçin terror təşkilatlarına dəstək verməyəcəyinimi, rəsmi Ankaranın Avropa Birliyinə daxil olmasına "yaşıl işıq" yandıracağınımı söz verib?. Təkcə bunlarmı?, yoxsa R.T.Ərdoğanın öz siyasi maraqları və toxunulmazlığı barədə də razılaşma var?-cavabı çətin suallardır. Və.. gələk yuxarıdakı ABŞ əmmasına. Rəsmi Vaşinqton deyir ki, "biz yalnız F-16 məsələsində Türkiyəyə dəstək olacayıq. Avropa Birliyi məsələsi bizlik deyil.".

Düzdür artıq dünən Ağ Ev bəyan etdi ki, Bayden Administrasiyası F-16-ların Türkiyəyə verilməsi üçün bütün imkanları ilə dəstək göstərəcək. Konqres də daxil olmaqla. Amma... amma AB məsələsi guya bunlarlıq deyil. Bəs kimlikdir ki?. Guya dünyada bilməyən qalıbmı ki, Avropa İttifaqı ABŞ-ın dirijorluğu olmadan ağzından bir kəlmə də çıxara bilmir?. Ən yaxşısını Donald Tramp edirdi. Dəlisov kişi idi, Avropa Birliyi liderlərini əməlli-başlı ələ salır, onlarla məzələnirdi. Bununla da Qərbdə kimin SÖZ SAHİBİ olduğunu hamıya göstərirdi. Mus-mus, MUSTAFA: Bəs ABŞ başda olmaqla Qərb dövlətləri bu kiritik məqamda Ərdoğanla necə razılaşdı?. Tələdir, gizli razılaşmadır yoxsa Qərbə xas olmayan KİŞİ SÖZÜ?. Detallar qaranlıqdır, nəticələri isə zaman göstərəcək. Gec ya tez..



# Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında yeni mərhələ

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan-Özbəkistan münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti vəzifəsinə keçirilən növbədənkənar seçkilərdə qazandığı parlaq qələbə münasibətilə Şavkat Mirziyoyevə təbrik məktubu ünvanlayıb.Dövlətimizin başçısı səsvermənin nəticələrinin milli iradənin ifadəsinin, Özbəkistan vətəndaşlarının Şavkat Mirziyoyevə olan sonsuz etimadının, inamının və hörmətinin, onun Özbəkistanın hərtərəfli inkişafı, rifahı və tərəqqisi naminə yürütdüyü siyasi xəttə geniş xalq dəstəyinin bariz təzahürü olduğunu qeyd edib.”Biz ortaq tarixi-mədəni köklər, qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Özbəkistan münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Xalqlarımızın iradə və məramından qaynaqlanan, qarşılıqlı inam və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi, tərəfdaşlığımızın yüksələn xətlə inkişaf etməsi xüsusi məmnunluq doğurur”, - deyə dövlətimizin başçısı vurğulayıb.Son dövrdə ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının, qarşılıqlı faydalı əməkdaşlığın inkişafında yeni istiqamətlərin müəyyənləşdirilməsinin sevindirici hal olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bildirib: ”Əminəm ki, birgə səylərimizlə qardaş ölkələr və etibarlı tərəfdaşlar olan Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq münasibətlərinin inkişafına, çoxşaxəli əməkdaşlığın genişlənməsinə, strateji tərəfdaşlığın daha da dərinləşməsinə nail olacağıq”.Prezident İlham Əliyev Şavkat Mirziyoyevi Azərbaycana dövlət səfərinə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

### PREZİDENT İLHAM ƏLİYEV ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEVƏ ZƏNG EDİB ONU BU QƏLƏBƏSİ VASİTƏSİLƏ TƏBRİK ETMƏSİ ZAMANIN SINAĞINDAN ÇIXAN DOST VƏ QARDAŞLIĞIN GÖSTƏRİCİSİDİR

Bu gün eyni soya, ortaq tarixə və mədəniyyətə, milli adət-ənənələrə malik olan Azərbaycan və Özbəkistan arasında dostluq və qardaşlığın kökləri tarixin dərin qatlarına gedib çıxır. Son illər ərzində iki ölkə arasında əlaqələr daha da möhkəmlənib. Belə ki, Azərbaycan və Özbəkistan dövlət müstəqilliklərini əldə etdikdən sonra tarixi dostluq və qardaşlıq münasibətləri daha da inkişaf etdirildi və uzun illərin sınağından çıxaraq bugünkü səviyyəsinə gəlib çatdı. Müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələrin inkişafında, dövlətlərarası münasibətlərin formalaşmasında ulu öndər Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub.Bu gün Azərbaycan bütün türk dövlətləri, o cümlədən Özbəkistanla ən yüksək səviyyədə diplomatik əlaqələrin qurulmasında və inkişaf etdirilməsində bölgənin lider dövləti kimi mühüm təşəbbüslər göstərir, türk birliyinin inkişafına böyük töhfələr verir. Azərbaycan-Özbəkistan əlaqələri TÜRKSOY, TÜRKPA, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası və digər qurumlar çərçivəsində günbəgün inkişaf etdirilir.Ölkələrimiz arasında diplomatik münasibətlər 1995-ci il oktyabrın 2-də qurulub. 1996-cı ilin avqustunda Azərbaycanın Özbəkistanda, 1998-ci ilin iyulunda isə Özbəkistanın Bakıda səfirlikləri fəaliyyətə başlayıb. Hazırda iki ölkə arasında hərtərəfli və strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Azərbaycan və Özbəkistan xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub, hazırda iki ölkə arasında münasibətlər yüksələn xətlə inkişaf edir. İqtisadi sahədə də əlaqələr inkişafdadır.Eyni zamanda, Özbəkistan keçmiş Qarabağ münaqişəsi ilə bağlı məsələdə daim Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Vətən müharibəsi dövründə Özbəkistan Xarici İşlər Nazirliyi tərəfləri hərbi əməliyyatları dayandırmağa, suverenlik və ərazi bütövlüyü prinsiplərinə riayət etməklə, münaqişəni sülh yolu ilə həll etmək üçün diplomatik danışıqlara başlamağa çağırıb. Qürurvericidir ki, Özbəkistan artıq azad Qarabağdakı quruculuq işlərinə qoşulub. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin bilavasitə təşəbbüsü ilə Füzuli rayonunda Özbəkistan dövlətinin vəsaiti hesabına böyük məktəbin inşasının layihəsi Azərbaycan hökumətinə təqdim olunub.

Ötən il martın 31-də Türk Dövlətləri Təşkilatının (həmin vaxt Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adlanırdı) videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə Görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanı ”Qarabağın qaytarılması və tarixi ədalətin bərpası” münasibətilə təbrik edib.2021-ci ilin noyabrında İstanbulda Türk Dövlətləri Təşkilatının VIII Zirvə Görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Füzulidə Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcəyini bildirib.Beləliklə, bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan-Özbəkistan münasibətləri yeni mərhələyə qədəm qoyub və iki ölkə liderlərinin - Azərbaycan Respublikasının Prezidenti İilham Əliyev cənablarının Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin uzaqgörən siyasəti, qarşılıqlı səfərləri və mütəmadi təmasları nəticəsində artan templə inkişaf etməkdədir.Və bu gün Özbəkistanda keçirilən növbədənkənar prezident seçkilərində Şavkat Mirziyoyev yenidən ölkə prezidenti seçilməsi və bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəənablarının Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edərək onu bu qələbəsi vasitəsilə təbrik etməsi Azərbaycan-Özbəkistan münasibətlərinin yüksək səviyyədə olduğunun və zamanın sınağından çıxan dost və qardaşlığın göstəricisidirPrezident İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə təbrik məktubunda bildirdiyi kimi: ”Sevindirici haldır ki, son dövrdə ikitərəfli münasibətlərimiz keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında yeni istiqamətlər müəyyən edilmişdir”.Bir sözlə, telefon söhbəti əsnasında iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi məsələləri müzakirə olunub. Göründüyü kimi, səmimi və dostluq şəraitində keçən telefon söhbəti bir daha Azərbaycan və Özbəkistan xalqlarını yaxın milli adət və ənənələr, ümumi dil qrupu, mədəniyyət və din birləşdirdiyini təsdiqləyir.

### AZƏRBAYCAN-ÖZBƏKİSTAN ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA DÖVLƏT BAŞÇILARININ QARŞILIQLI SƏFƏRLƏRİ...

Azərbaycanla Özbəkistan arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin genişlənməsini və strateji xarakter almasını şərtləndirir. Səfərlər zamanı imzalanan müqavilələr, sazişlər ölkələrimiz arasında münasibətlərin gələcəyini müəyyənləşdirir. Bir sözlə, Prezidentlərin qarşılıqlı səfərləri onu göstərir ki, hər iki tərəf münasibətlərin inkişafına böyük önəm verir.Ən əsası isə, Özbəkistan ölkəmizin ərazi bütövlüyünün bərpası işində Azərbaycanı dəstəkləyən ölkələrdən oldu. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss etdi. Bütün bunlar Azərbaycan-Özbəkistan münasibətlərinin tarixində unudulmaz hadisələrdir. Bir sözlə, hər iki dövlət rəhbərlərinin səfərləri strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və çoxşaxəli əməkdaşlığın genişləndirilməsinə müsbət təsirini göstərir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti vəzifəsinə keçirilən növbədənkənar seçkilərdə qazandığı parlaq qələbə münasibətilə Şavkat Mirziyoyevə təbrik məktubu bir daha dostlar kimi, qardaşlar kimi bu sevincə sevinir və bu dostluq, qardaşlıq münasibətləri daha da dərinləşəcək. Dövlət başçımızın dediyi kimi: ”Əminəm ki, birgə səylərimizlə qardaş ölkələr və etibarlı tərəfdaşlar olan Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq münasibətlərinin inkişafına, çoxşaxəli əməkdaşlığın genişlənməsinə, strateji tərəfdaşlığın daha da dərinləşməsinə nail olacağıq”.

***RƏFİQƏ KAMALQIZI***

# NATO+İsveç=Türkiyə

## Ərdoğandan unikal gediş və mat




**Prezident Rəcəb Tayyib Ərdoğanın Litvanın paytaxtı Vilnüsdə NATO-nun kritik Zirvə Toplantısında verdiyi açıqlamalar dünyanın gündəmini zəbt edib. Dünya zirvədən çıxan qərarlardan danışarkən, ilk F-16 açıqlaması ABŞ prezidenti Co Baydendən gəldi. Bayden deyib ki, mən prezident Ərdoğan və Türkiyə ilə Avro-Atlantik regionda müdafiə və çəkindirmə imkanlarını yaxşılaşdırmaq üçün işləməyə hazıram. Onun açıqlamasının əks-sədası Ağ Evdən və NATO-dan da gəldi.**

ABŞ prezidenti Co Bayden Prezident Rəcəb Tayyib Ərdoğanın İsveçin NATO-ya üzvlük protokolunu Türkiyə Böyük Millət Məclisinə çatdırma öhdəliyindən sonra ABŞ-ın hakim dairələrində bir rahatlıq yaşanıb. Bayden verdiyi yazılı açıqlamasanda Prezident Ərdoğanın yaydığı bəyanatı alqışladığını bildirib. Bayden İsveçi NATO-nun 32-ci müttəfiqi kimi qarşılamağı səbirsizliklə gözlədiyini deyib. ABŞ prezidenti həmçinin NATO-nun baş katibi Stoltenbergə qətiyyətli dəstəyə görə təşəkkür edib.

ABŞ Dövlət Departamenti F-16-ların Türkiyəyə satışını açıq şəkildə dəstəklədiklərini və Türkiyənin Avropa İttifaqı hədəflərinə dəstək verməyə davam edəcəklərini bildirib. Dövlət Departamentinin sözçüsü Metyu Miller gündəlik mətbuat konfransında mətbuat mənsublarının suallarını cavablandırıb. İsveçin NATO üzvlüyünün və F-16-ların satışının iki ayrı məsələ olduğunu qeyd edən Miller "Bir müddətdir F-16 satışında Türkiyəni dəstəklədiyimizi açıq şəkildə elan etdiyimiz üçün onlara özəl görüşlərdə də deyirik. Ancaq biz bunu belə olduğuna inanmırıq. Bir qrup Konqres üzvü var ki, bunun NATO üzvlüyü ilə əlaqəli olduğuna inanırlar", deyib. Miller Türkiyənin Avropa Birliyi (AB) hədəflərini dəstəkləməyə davam edəcəklərini və bunun AB ilə Türkiyə arasında bir məsələ olduğunu ifadə edib.

Ağ Evin milli təhlükəsizlik üzrə müşaviri Cek Sullivan deyib isə bildirib ki, Bayden F-16-ların satışını Konqreslə məsləhətləşərək Türkiyəyə göndərməyi planlaşdırır.

### Yaşıl işıq və F-16-lar

NATO-nun baş katibi Yens Stoltenberq Türkiyə ilə ABŞ arasında F-16-larla bağlı dialoqu alqışladığını bildirib və Türkiyənin ABŞ-dan F-16 döyüş təyyarələri almaq planının İsveçin Türkiyə, İsveç və NATO arasında əldə etdiyi razılaşmanın nəticəsi olduğunu bildirib. İsveçin NATO-ya üzvlük müraciəti, prezident Rəcəb Tayyib Ərdoğan, İsveçin baş naziri Ulf Kristersson və qatıldığı üçtərəfli görüşlə bağlı sualı cavablandıran Stoltenberq, "Bu zirvə hələ başlamamış tarixi oldu. İsveç NATO-ya tamhüquqlu üzv olacaq. Yəni, bu, İsveç, Türkiyə, bütün NATO və Baltikyanı region üçün yaxşıdır", bildirib.

Stoltenberq Türkiyənin terrorla bağlı haqlı narahatlıqlarını ortaya atdığını və keçən il Madrid Zirvəsindən bu yana Türkiyə, İsveç və Finlandiya arasında imzalanan Üçtərəfli Memorandumun bunların aradan qaldırılması üçün işini davam etdirdiyini, İsveçin də bəzi addımlar atdığını bildirib.

Stoltenberq Türkiyənin ABŞ-dan F-16 döyüş təyyarələri almaq planı ilə bağlı sualı cavablandırarkən çox maraqlı məqamlara toxunub: "Bu, ABŞ-ın qərarıdır. Türkiyə təhlükəsizlik məsələlərində haqlıdır. Türkiyənin qonşuluğunda müharibə gedir və bu, müttəfiqimiz, NATO üzvü üçün açıq təhdiddir. Ancaq NATO silahlarını bu ölkədən çıxarır, silah ixracını məhdudlaşdırır. Bundan sonar




Türkiyənin bir addımı gözlənilirdi ki, bunu da etdi. F-16-larla bağlı Türkiyə ilə ABŞ arasında dialoqu alqışlayıram. Amma bu, dünən əldə etdiyimiz konsensusun bir hissəsi deyil".

### Türkiyənin Aİ-yə tam üzvlük məsələsi

Prezident Ərdoğan Litvanın paytaxtı Vilnüsdə keçirilən NATO-nun kritik Zirvə toplantısında Türkiyə-Amerika münasibətlərinin canlandırılması, həmçinin Türkiyə ilə Aİ arasında tam üzvlük prosesi və NATO-nun yeni müdafiə planları haqqında danışıqların gərgin olduğunu deyə bilərik. Ərdoğan və Bayden arasında telefon danışığı Türkiyə tərəfinin verdiyi 3 mesaj diqqət çəkib. Sammit Türkiyə-Amerika münasibətləri ilə yanaşı, Türkiyə ilə Aİ arasında tam üzvlük prosesinin canlandırılması və NATO-nun yeni müdafiə planları baxımından da gərgin danışıqlara səhnə oldu. Cənab Ərdoğan İstanbuldan yola düşməzdən əvvəl Avropa paytaxtlarında gündəmi silkələyən çağırışa imza atdı:

Sammitdən əvvəl Ərdoğan NATO-nun baş katibi C.Stoltenberqin xahişi ilə İsveçin baş naziri Kristerssonla iki mərhələli iclasda görüşüb. İsveç isə çox aydın və əlavə məcburi öhdəliklərlə həmin görüşə qatıldı. Türkiyə Prezidentinin üç mesajı diqqəti cəlb etdi:

Birincisi, NATO üzvlüyünü hədəfləyən İsveç terror təşkilatı PKK/PYD/YPG tərəfdarlarının sərbəst şəkildə terroru dəstəkləyən nümayişlər keçirdiyi ölkə olaraq son addımlarında uğursuzluğa düçar oldu.

İkincisi Türkiyənin F-16 tələbini İsveçin NATO-ya üzv olması ilə əlaqələndirmək düzgün deyil.

Üçüncüsü, Türkiyə Aİ-yə üzvlük prosesini canlandırmaq istəyir. Bu istiqamətdə Aİ-dən də güclü liderlik gözlənilir.



İsveç ölkəsini PKK və FETÖ-yə təslim etməyəcəyini, Türkiyə ilə ikitərəfli təhlükəsizlik mexanizmi quracağını, ticarət və hərbi sanksiyalar tətbiq etməyəcəyini, gömrük ittifaqını yeniləməklə viza liberallaşdırılmasına dəstək verəcəyini qəti şəkildə təmin edib. Razılaşmaya əsasən tərəflər təmasları həm NATO daxilində, həm də hər iki ölkə nazirlərinin iştirakı ilə davam etdirəcəklər. Ankara, Stokholm və Brüssel razılaşıblar ki, terrorla mübarizə uzun müddətli prosesdir və bu istiqamətdə işlər NATO-nun genişlənməsindən



sonra da davam etməlidir.

İlk iclasda İsveç terrorla necə mübarizə aparacağına dair planı Türkiyəyə təqdim etməlidir. Razılığa görə, həmçinin Stokholm heç bir terror təşkilatını dəstəkləməyəcək. Bundan başqa, Ankara və Stokholm arasında iqtisadi əməkdaşlıq başlayacaq. Ölkələr arasında silah ticarəti ilə bağlı məhdudiyyətlər yumşaldılacaq. Eyni zamanda, İsveç Türkiyənin Avropa İttifaqına (Aİ) üzvlüyünü dəstəkləyəcək.

Qeyd edək ki, İsveç və Finlandiya 2022-ci il mayın 18-də NATO-ya üzv olmaq üçün ərizə ilə müraciət etmişdi. Türkiyə bu ölkələrin Alyansa üzvlüyü üçün terrorçuları dəstəkləməmələri ilə bağlı şərt irəli sürmüşdü. Finlandiya Ankaranın bu tələblərini yerinə yetirib. Finlandiya bu ilin aprelində NATO-ya üzv olub. Lakin İsveç Türkiyənin şərtlərinə əməl etmədiyinə görə Ankara Stokholmun quruma qoşulmasının əleyhinə səs verib. Nəticədə İsveç hələlik NATO-ya qəbul edilməyib.

Rusiyanın Vaşinqtondakı səfiri Anatoli Antonov isə bildirib ki, Birləşmiş Ştatlar cəmiyyəti NATO-nun Vilnüsdə keçiriləcək sammitində Rusiya əleyhinə qəbul ediləcək istənilən qərarı təsdiqləməyə hazırlayır. Onun sözlərinə görə, vəziyyət Rusiya ilə NATO arasında qarşıdurmada ”ən əlverişsiz nəticəyə doğru sürüşməkdə” davam edir. Bir müddət əvvəl Litva prezidenti bildirib ki, NATO-nun alyansla Moskva arasında münasibətlər və əməkdaşlığa dair fundamental aktı etibarsız sayması və Rusiya sərhədləri yaxınlığında daimi hərbi bazalar yaratmasının vaxtı çatıb.

Mariya Zaxarova qeyd edib ki, NATO-nun Vilnüsdə keçiriləcək sammitində Ukraynaya dəstək üçün rəngarəng tamaşa göstəriləcək. Daha əvvəl Anatoli Antonov bildirmişdi ki, Rusiya beynəlxalq problemləri sülh yolu ilə həll etməyə çalışır, lakin birqütblü dünya düzənindən əl çəkməyə hazır olmayan rəqiblərin müqaviməti ilə üzləşir. Diplomat qeyd edib ki, parçalanma ”təhlükəli çağırışların və təhdidlərin yayılmasına gətirib çıxarır, bunlardan başlıcası terrorizm və kütləvi qırğın silahlarının yayılmasıdır”.

## Xarici media NATO sammitindən yazır

Bu həftə başlayan NATO-nun Vilnüs sammiti artıq dünya mətbuatının diqqətini cəlb edib. Onun əsas problemi, ekspertlərin fikrincə, Ukraynanın alyansa daxil olması məsələsində müttəfiqlərin açıq şəkildə parçalanması və kompromis tapmaqda çətinlik çəkir.

### Financial Times (London, Böyük Britaniya)

Alyansı parçalamaq təhlükəsi yaradan məsələ Ukraynanın ona qoşulmaq ambisiyalarıdır. Polşa, Baltikyanı ölkələr və Ukraynanın özü də daxil olmaqla bir düşərgə ölkənin NATO-ya üzvlüyü üçün sürətli bir yola salınmasını istəyir. ABŞ-ın rəhbərlik etdiyi və Almaniyanın dəstəklədiyi digəri isə prosesi ləngitmək və Ukrayna üçün başqa formada təhlükəsizlik təminatları irəli sürmək istəyir. Güman ki, mahir diplomatlar bu ziddiyyətləri kağız altında gizlədəcək ifadələr tapacaqlar.

NATO-nun yekun rəyi budur ki, Ukraynanın gələcəkdə alyansa üzv olacağı təsdiqlənəcək, lakin orada sürətləndirilmiş proseslə bağlı heç bir vəd olmayacaq. Bununla belə, bütün bunların arxasında Ukraynadakı münaqişənin necə sona çatması və sülhün necə təmin edilməsi ilə bağlı əsaslı fikir ayrılıqları dayanır... Ukrayna təbii ki, NATO-da daha təhlükəsiz olacaq və təcrübə göstərir ki, Rusiya NATO Nizamnaməsinin 5-ci maddəsi ilə qorunan ölkəyə hücum etməyəcək. Amma reallıqda Amerikanın mövqeyi üstünlük təşkil edəcək. Çünki bütün NATO ölkələrinin müdafiə xərclərinin təxminən 70%-i ABŞ-ın payına düşür. Ona görə də NATO siyasəti son nəticədə Brüssel və ya Vilnüsdə deyil, Vaşinqtonda həll olunacaq.




### The Wall Street Journal (Nyu York, ABŞ)

Şimali Atlantika Müqaviləsi Təşkilatının liderləri bu həftə Vilnüsdə illik sammitini keçirəcəklər və ittifaqın dirilişinin nümayiş olunacağını söyləmək çox xoşdur. Dirçəlişin əsas məqamları ABŞ və digər müttəfiqlərinin Ukraynanın hərbi xərclərini təmin etmək qərarı oldu. Kansler Olaf Şolz ”dönüş nöqtəsi” olan nitqində Almaniyanın və digər tərəfdaşların NATO daxilində ümumi təhlükəsizliyi bərpa etmək üçün daxili siyasi transformasiyaya ehtiyacı olduğu bildirdi. Vilnüsdə ilk vəzifə çətin əks-hücum və bundan sonra nə olursa olsun Ukraynanı dəstəkləməyə davam etmək olacaq. Qərb liderləri Ukraynanın qeyd-şərtsiz qələbəsini istədiklərini söyləməkdən çəkinirlər. Bu, Qərbin qətiyyəti barədə Kremlə qarışıq siqnallar göndərdiyi üçün səhvdir. Lakin həlledici qələbəyə mane olan müttəfiqlər güc mövqeyindən Ukraynaya sülh danışıqlarına kömək etməkdə maraqlıdırlar. Bu isə Ukraynaya daha təkmil silahların tədarükü deməkdir.

NATO genişlənməsini başa çatdırmalıdır... Finlandiya artıq üzvdür, lakin Türkiyə ağlabatan səbəb olmadan İsveçin NATO-ya girişini əngəlləyirdi. Bu həftə keçiriləcək sammit digər liderlər üçün cənab Ərdoğana bloka üzvlüyün Türkiyə üçün faydalı olduğunu xatırlatmaq üçün bir fürsətdir və bu, komanda şəklində oynamaq öhdəliyi ilə gəlir.

### The New York Times (Nyu York, ABŞ)

Prezident Bayden və alyansa üzv dövlətlərin liderlərinin Litva toplantısında Ukraynanın NATO-ya hələlik qəbul edilməyəcəyi bəllidir. İsveç də çox güman ki, onun girişinə hələ də Türkiyənin əngəl törətməsi səbəbindən Bloka üzv ola bilmir. Danışıqlar artıq aylardır davam edir və bu danışıqlar NATO-nun 31 ölkəsi, o cümlədən ən yeni üzv Finlandiyanın da qatıldığı Vilnüs Sammitinə qədər tamamlanmalı idi. Alyans daxilində qızğın danışıqlar davam edir. Baydenin hər addımda qeyd etdiyi kimi, NATO birliyinin müharibə davam etdikcə qorunub saxlanılmasının nə qədər çətinləşdiyi vurğulanır.

Sammitdə ən çətin sual Ukraynaya konkret nə vəd ediləcəyi ilə bağlıdır. NATO rəsmiləri yekun kommünikedə ”Ukraynanın haqlı yerinin NATO alyansında olduğunu” söyləməsi gözlənilir, lakin ”şərtlər imkan verdikdə” sözlərinin əlavə edilməsi və bu şərtlərdən bəzilərinin təfərrüatlı şəkildə göstərilib-edilməməsi ilə bağlı müzakirələr gedir. Ancaq ifadədən başqa, Ukraynanın oraya necə və hansı proses vasitəsilə çatması mübahisəli olaraq qalır.

### Die Tageszeitung (Berlin, Almaniya)

Nadir hallarda NATO sammitləri belə əlamətdar olub. Və nadir hallarda onların nəticələri belə qeyri-müəyyən olub. NATO-ya üzv 31 ölkənin dövlət və hökumət başçıları Vilnüsdə görüşəndə... bu çərşənbə axşamı, demək olar ki, heç nə aydın olmayacaq. Bazar ertəsindən belə əminlik yoxdur ki... Prezident Zelenski dəvəti qəbul edəcək... Ən pis halda uğursuzluq riski var.

NATO üzvü olan ölkələrin əksəriyyəti Ukraynanı NATO-da görmək istəyir. Co Bayden və Olaf Şolz isə bunu istəmir. Əgər NATO üzvləri bu mübahisəni birbaşa həll etməyə başlasalar, o zaman sammit pozulacaq... Ona görə də müxtəlif cür şərh oluna biləcək bəzi kompromislər icad ediləcək və bunun nəticəsi o olacaq ki, Ukrayna nə vaxt NATO-ya üzv olmağa icazə veriləcək. Bu isə Ukraynanı qane etməyəcək.

İyulun 11-dən 12-dək Litvanın paytaxtı Vilnüsdə keçirilən NATO-nun sammitinin əsas gündəliyinə üç aspekt daxildir: Ukrayna məsələsi, İsveçin NATO-ya daxil olması və Çinin yüksəlişi ilə bağlı problemlərin həlli üçün Asiya-Sakit Okean regionunun işlərində iştirak. Hesabatlara əsasən, NATO-ya üzv ölkələrin bu üç məsələdə müxtəlif dərəcədə fikir ayrılığı var. Lakin bu üç sual NATO-nun ixtisarını və geri çəkilməsini deyil, aqressivliyini vurğulayır. Rusiya-Ukrayna münaqişəsi başlayandan NATO-ya üzv ölkələr Qərb sivilizasiyası ideologiyası bayrağı altında birləşmələrini gücləndiriblər. Eyni zamanda, üzv ölkələr və liderlər NATO-nun genişlənməsi üçün əvvəlkindən daha güclü ambisiyalar nümayiş etdirirlər. Bu, ənənəvi NATO siyasətindən fərqlidir, onun mərkəzində müdafiə dayanır.

NATO-nun aqressivliyi təkcə hərbi çəkindirmə gücünün genişlənməsi deyil, həm də dəyərlərin genişlənməsidir. Məhz bu ”əsl niyyət” üzündən NATO-nun genişlənməsi öz vizyonunda sözdə qlobal təhlükəsizliyi ehtiva edir... Asiya-Sakit Okean regionunda fəaliyyətlə bağlı NATO daxilində fərqli fikirlər görsək də, daha çox diqqət yetirməli olduğumuz şey güclü NATO daxilində davamlı olaraq genişlənmə arzusudur. NATO daxilində genişlənmə ilə bağlı mövcud fikir ayrılıqları, əsasən, genişlənmək və ya olmamaq ilə bağlı deyil, daha çox, hansı genişlənmənin həyata keçirilməsi, yavaş və ya sürətli olması ilə bağlıdır...

***V.VƏLİYEV***

# Geosiyasi müstəvidə davam edən İKİLİ STANDARTLAR

**Demokratiya, insan haqları, qanunun aliliyi kimi ali dəyərlərin carçısı kimi özünü göstərənlərin əslində, ikili standartlardan çıxış etməsi əfsus ki, hələ də davam edir. Cənubi Qafqazda hansısa ali dəyərləri guya təbliğ etməyə çalışanların riyakarlıqları dəfələrlə özünü göstəribsə və bu hələ də davam edirsə, deməli, ikili yanaşma, iliki standartlardan əl çəkilməyib. Region ölkələrinə müvafiq normalar barədə tövsiyyələr verməyi özünə rəva bilən ölkələrin özlərinin buna məhəl qoymadığı dəfələrlə öz təsdiqini tapıb və bu da o deməkdir ki, başqalarının gözündə tük axtaranlar öz gözlərində tiri görmürlər, yaxud görmək istəmirlər.**




Diqqətə çatdıraq ki, Qərbin bir çox ölkələrdən gözləntiləri, hətta tələbləri ilə davranışları qətiyyən üst-üstə düşmür və bu halla bağlı bir çox misallar göstərmək olar. Qısa şəkildə ifadə etmiş olsaq, Qərbin məhz geosiyasi aynada çox riyakar görünməsinin dəfələrlə şahidi olmuşuq və "tövsiyyələri" ilə tərzi arasındakı uyğunsuzluq da artıq qabarıq şəkildə ortaya çıxır. Nümunə üçün qeyd edək ki, kasetli bömbaların istifadəsinin yolverilməzliyini bəyan edənlərin, daha dəqiq desək, ABŞ hökumətinin 800 milyon dollarlıq yeni hərbi yardım paketinin bir hissəsi kimi Ukraynaya kaset sursatlarının çatdırılmasını təsdiqləməsi onun iddiaları ilə qətiyyən uyğunluq təşkil etmir. Məsələ burasındadır ki, buna don da geyindirilir, hələ bir bəhanə də quraşdırılır. Məsələn, ABŞ prezidenti Co Bayden bəyan edir ki, Ukraynanın silah-sursat ehtiyatlarının azaldığını nəzərə alaraq, tədbir görülməli olduğu səbəbindən guya belə bir çətin qərar təsdiqlənib. Amma dünya ictimaiyyəti yaxşı bilir ki, Ağ Ev kasetli sursatlardan istifadənin mülki əhali üçün ciddi təhlükə yarada biləcəyini dəfələrlə bildirib. ABŞ-ın milli təhlükəsizlik müşaviri Ceyk Sallivan özü bunu təsdiqləyib, baxmayaraq ki, o, qərarın asan olmadığını da etiraf edib. Bəhanə kimi də qeyd edib ki, guya Ukraynanın artilleriya mərmilərinə olan tələbatını tam ödəyə bilməyəcəyini nəzərə alaraq, prezidentin müşavirlərinə yekdilliklə qərarın qəbul edilməsini tövsiyə edib. Belə çıxır ki, riyakarlıqlarını özləri də hamıdan yaxşı görürlər, əks halda buna izahat verilməzdi. Yəni, bir tərəfdən həmin sursatların istifadəsinin yolverilməzliyi bildirilirsə, digər tərəfdən də belə "tövsiyyələr" edilirsə, buna riyakarlıqdan başqa ad vermək olmaz. Yox əgər belə bir adı özləri bilirlərsə, qoy həmin adı da özləri versinlər.

Bəli, işğalçıya qarşı mübarizəni dəstəkləmək alqışa layiqdir. Ukraynanın da ərazi bütövlüyü uğrunda mübarizə apardığını nəzərə alsaq, işğalçı ilə qarşı-qarşıya dayanması fonunda həmin ölkəyə kömək də başadüşüləndir. Sadəcə başa düşülməyən odur ki, niyə həmin o Qərb, xüsusən də ABŞ işğalçı Ermənistana, həmin ölkənin işğalçılıq siyasətinə qarşı illərlə mübarizə aparan Azərbaycanı o zaman dəstəkləmədi? Rusiyanı işğalçı olaraq qəbul etdiyindən sanksiyalara əl atan, Kremlə qarşı barışmaz mövqe sərgiləyən, əks tərəfi, yəni Ukraynanı dəstəkləyən həmin o Qərb niyə ötən əsrin sonlarında ölkəmizin ərazisini işğal edən işğalçı Ermənistanı ən azından qınamadı və Azərbaycanı dəstəkləmədi? Ukrayna-Rusiya müharibəsi fonunda, cəmi bir-iki il müddətində dəfələrlə işğalçıya qarşı olduğunu bəyan edən Qərb niyə 30 ildən çox müddət ərzində, yəni torpaqlarımız işğal altında olduğu dövrdə bir dəfə də olsun bu barədə fikir də səsləndirmədi? Yaxud, Ermənistanın kasetli bombalardan istifadə etməsini, hətta müharibənin başa çatmasından, erməni baş nazirinin kapitulyasiya sənədini imzalamasından sonra qadağan olunmuş silahları ölkəmizin dinc əhalisinə tuşlamasını niyə sadəcə seyr edirdi? Hələ bu azmış kimi, haqsız və əsassız olaraq, həmin o kasetli bombalardan 44 günlük müharibə dönəmində Azərbaycanın istifadə etdiyi deyilir və ölkəmiz qınanılırdı. İndi yenə də mövqe dəyişkənliyi müşahidə olunur və artıq belə silahların Ukrayna tərəfindən istifadəsi barədə təklif müzakirəyə çıxarılır, bu barədə tövsiyyələr verilir. Bir sözlə, mövqe dəyişkənliyi, ikili yanaşma, ikili standartlar hələ də davam edir.

Qərbin ikili yanaşmasının pilotsuz təyyarələrlə bağlı fikirlərində, mövqeyində də görmək çətin deyil. Beləki, Azərbaycanın istifadəsi zamanı "ölüm silahı" adlandırılan, istifadəsi qınanılan həmin o pilotsuz təyyarələr Ukrayna tərəfindən istifadə edildikdə lazım bilinir, münasib hesab olunur. Ukraynanın apardığı müharibəni ərazi bütövlüyü uğrunda mübarizə kimi "dəyərləndirən" Qərb, 30 il ərzində ərazisi işğal altında saxlanılan Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi istiqamətində apardığı mübarizədə münaqişənin hərbi yolla həllinin yolverilməz olduğunu dəfələrlə bəyan edirdi. Buna ədalətli yanaşma demək mümkündürmü və bu yanaşma ikili yanaşma deyilmi? Regionda maraqlarını, iştirakını təmin etmək üçün Ermənistanın təxribatçı hərəkətlərinə, separatçılıq fəaliyyətinə göz yummaqla, hətta ermənilərin maraqlarının təmin edilməsinə çalışmaqla, bunun üçün də onların təxribatlarına rəvac verməklə işğalçını qınamaq qətiyyən bir araya sığmır. Çünki işğalçını qınayan həmin o işğalçının maraqlarından çıxış etməz, eyni ilə indi Rusiya-Ukrayna müharibəsində olduğu kimi. Amma görünən odur ki, Qərb özünə lazım olanda bir cür, lazım olmayanda başqa cür yanaşma sərgiləməyi özünə rəva bilir və deməli, ikili standartlardan çıxış etməyi qəbul da edir. Bir sözlə, geosiyasi vəziyyətdən asılı olaraq, Qərb öz prinsiplərindən imtina da edə bilir, onların təhrif olunmasının mümkünlüyünü də gizlətmir. Xüsusən də, türk və islam ölkələrinə qarşı xristian həmrəyliyi ön planda durduğundan Qərbin erməniləri dəstəkləməsi özləri üçün tam məntiqi və əsaslı görünür. Hətta Qərb üçün hansısa geosiyasi əhəmiyyət kəsb etmədikdə belə, istər Avropa ölkələri, İstərsə də ABŞ mümkün qədər erməni maraqlarından çıxış etməyi üstün hesab edir.

Ən çox diqqəti cəlb edən, hətta ikrah doğuran odur ki, Azərbaycanın ərazi bütövlüyünə hörmət etmək çağırışı ilə çıxış edən Qərb, özünü elə aparır ki, guya nə Ermənistanın təcavüzündən, nə də ermənilərin Qarabağ bölgəsini işğal etməsindən, nə törətdikləri soyqırımlardan, nə maddi-mədəni abidələrə vurduqları ziyandan, nə etdikləri vandallıqlardan, vəhşiliklərdən, yol verdikləri mina terrorundan, ekoloji terrordan xəbərləri yoxdur. Halbuki, Xocalı soyqırımı kimi tarixə yazılan insanlıq dramını Qərbin görməməsi, yaxud görməməzliyə vurması, Azərbaycana məxsus mədəniyyət abidələrinin, məscidlərin ermənilər tərəfindən dağıdılması, fauna və floramıza vurduqları ziyan, meşələri, yaşıllıqları onların məhv etmələri, ekoloji terror törətmələri barədə bilməməsi qətiyyən mümkün deyil. Müasir dünyada, informasiyanın sürətlə yayıldığı bir dövrdə bunun əksini söyləmək gülünc səslənər və elə bu baxımdan da müşahidə etdiklərimiz onu deməyə əsas verir ki, geosiyasi müstəvidə ikili yanaşma hələ də davam edir. Əgər belə olmasaydı, ən azından, son illər ərzində dəfələrlə ABŞ-da keçirilən görüşlər zamanı bu qanunsuz hərəkətləri Ermənistanın nümayəndə heyətinin üzünə deyilərdi, buna görə qınanılardı. Doğrudur, Ağ Ev heç də Ermənistanı nə haqlı tərəf kimi gördüyünü bəyan etmir, nə də Azərbaycana qarşı hansısa bir əks mövqe sərgiləmir və ölkəmizin haqlı olduğunu dana da bilmir. Amma əsil ədalətlilik o zaman olardı, ikili standartlardan imtina etdiklərinə o zaman əmin olunardı ki, birmənalı şəkildə ermənilərin qanunsuz hərəkətləri həm elə zamanında, həm də indiki zamanda kəskin şəkildə deyilər, bəyan edilərdi. Edilməyibsə, yenə də edilmirsə, bunun fonunda da Ukrayna dəstəklənir, Rusiya da qınanılırsa, deməli, yanaşmaları məhz ikili yanaşmadır. BMT Təhlükəsizlik Şurasının Azərbaycanın xeyrinə qəbul etdiyi dörd qətnaməsinə İrəvanın onilliklər boyu məhəl qoymamasına Qərb müşahidəçi mövqe sərgiləyibsə, Ukraynadan fərqli olaraq, münaqişənin həllinin hərbi yolla mümkün olmadığı Azərbaycana bildirilibsə, təcavüz edənlə təcavüzə məruz qalan arasında fərq qoyulmayıbsa, bu gün isə Rusiya-Ukrayna müharibəsi fonunda ukraynalılara döyüşmək üçün hərbi yardımlar edilirsə, silah-sursat verilirsə, dəstək göstərilirsə, deməli, Qərb hələ də ikili standart yanaşmasına sadiq olduğunu gizlətmir, hətta nümayişkəranə şəkildə göstərir də.

Hərdən elə təəssürat yaranır ki, elə bil ikili standartlar geosiyasi müstəvidə sanki ənənə halını alıb və bundan yaxa qurtarmaq mümkün də deyil. Halbuki, beynəlxalq aləmdə ədalət və bərabərlik prinsiplərini qorumaq ən doğru yoldur və çox vacibdir. Elə bu səbəbdən də Azərbaycan hər zaman öz ədalətli yanaşması ilə digərlərindən kəskin şəkildə fərqlənib və bu istiqamətdə daim haqlı, qanuni mövqeyi ilə seçilib. Bu gün də bu tendensiya davam etməkdədir. Bu ənənənin ölkəmiz tərəfindən davam etdirildiyinə dünya ictimaiyyəti ötən həftə Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun iclası zamanı bir də əmin oldu. Böyük dövlətlərin imperiya ambisiyaları, onların güc hüququna arxalanmaları və bu fonda da kiçik dövlətlərin suverenliyini geniş şəkildə pozmaları, buna da Qərbin göz yumması, nəticədə də ikili standartlara getdikcə yol açılması sözügedən iclasda kəskin şəkildə qınanıldısa, deməli, Azərbaycan həmin o standartların, ikili yanaşmanın əleyhinə olduğunu bir daha cəsarətlə bəyan etdi və buna qarşı çıxdığını bildirdi. Məsələn, Ermənistanın Azərbaycana qarşı təcavüzünə, işğalçılıq siyasətinə göz yuman, ermənilərin qanunsuz hərəkətlərini görməməzliyə vuran, ermənilərin qondarma istəklərinin reallaşması üçün əlindən gələni əsirgəməyən, ölkəmizin haqlı mövqeyinə məhəl qoymayan Fransanın əslində, koloniyal siyasət yürütdüyünün, bir milyondan çox əlcəzairlinin ölümünə səbəb olduğunun bəyan edilməsi, bu siyasətin, bu əməllərin qınanılmas özü də ədalətsizliyə qarşı mübarizədir, hansı ki, buna ikili yanaşma demək olmaz. Amma nədənsə, Cənubi Qafqaza müxtəlif ali dəyərlərdən dərs keçmək həvəsinə düşən Qərb heç zaman Fransanın bu çirkin tarixi əməlləri barədə fikir bildirmir, həmin o Avropa ölkəsi qınanılmır. İnsan haqlarını, söz azadlığını, azad yaşama hüququnu və digər ali dəyərləri nəzərə almaq, qorumaq yalnız region ölkələrinə, Cənubi Qafqaz ölkələrinə "tövsiyyə" edilməlidir? Məgər qanunsuz əməllər törətdiyi, milyondan çox insan tələfatına səbəb olduğu, insanlığa sığmayan, ali dəyərlərdən uzaq olan hərəkətlərə yol verdiyi barədə Fransa kimi bir Avropa dövlətinə irad belə tutmaq olmaz? Elə bu fonda da hal-hazırda rəsmi Parisin cinayətkar separatı rejimi dəstəklədiyi barədə də həmin ölkəyə bir xəbərdarlıq da olsa etməmək nə deməkdir? İkili yanaşma, ikili standartların tətbiqi deyilmi? Gec də olsa, artıq bu standartlara, ikili yanaşmaya son qoymaq lazımdır ki, dünyada ədalət bərqərar olunsun, hansı ki, Azərbaycan bu nümunəni ötən həftə Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun iclası zamanı ortaya qoydu. Əgər bu nümunəyə uyğun olaraq, ədalətli yanaşmaya üstünlük verilməzsə, geosiyasi müstəvidə iliki standartlar uzun müddət davam edə bilər və bu da haqsızlığın, ədalətsizliyin ayaq tutub yeriməsinə rəvac vermək deməkdir. Belə bir şərait isə gələcək üçün heç də müsbət nəticələr vəd edə bilməz və Qərbin özü də bundan ziyan görər və deməli, artıq ikili standartların tətbiqinə son qoymanın çoxdan zamanı yetişdiyi qəbul olunmalıdır.

***İnam Hacıyev***

# Azərbaycan-Vatikan münasibətləri: möhkəm təmələ əsaslanan əməkdaşlıq



Ölkəmiz müstəqil dövlət olaraq, dünyanın bir çox ölkələri ilə yanaşı, katolik xristianlarının mərkəzi sayılan Vatikan dövləti ilə də diplomatik münasibətləri yüksək səviyyədə qurub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbul etməsi əlaqələrini davamlı olmasına, eləcə də dostluq münasibətlərinə söykənir. Uğurlu münasibətlər kontekstinə siyasi dialoqdan tutmuş mədəniyyətin və onun irsinin qorunması, elm və təhsil sahələri də daxildir. Prezident İlham Əliyev münasibətlərimizin dərinləşdirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd edərək, özünün 2020-ci ildə Vatikana səfərini və Pietro Parolin ilə görüşünü, həmçinin Roma Papası Fransiskin ölkəmizə səfərini məmnunluqla xatırlayıb. Dövlətimizin başçısı kardinal Pietro Parolinin səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyi ifadə edib. Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu ifadə edən kardinal Pietro Parolin Roma Papası Fransiskin salamlarını və ən xoş arzularını, həmçinin ölkəmizdə katolik icmaya göstərilən diqqətə görə təşəkkürünü dövlətimizin başçısına çatdırıb. Dövlətimizin başçısı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin açılmasını diqqətə çatdırıb.



İkitərəfli münasibətlərin qurulmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Ulu Öndər Heydər Əliyevin 1997-ci il sentyabrın 26-da Vatikana rəsmi səfəri və Roma papası II İohann Pavellə görüşü bu əlaqələrin dərinləşməsində və möhkəmlənməsində mühüm rol oynayıb. 2002-ci ildə Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin, ilk dəfə olaraq, Azərbaycana rəsmi səfəri zamanı Ulu Öndər Vatikan rəhbərini dinindən, dilindən, irqindən asılı olmayaraq, bütün bəşəriyyətin dostu və dünya vətəndaşı adlandırmışdı. II İohann Pavel isə Azərbaycanı Şərq ilə Qərbin arasında qapı olan bir məkan kimi xarakterizə etmişdir.

## ”SİVİLİZASİYALARARASI DİALOQ YAŞAYIR, DAVAM EDİR, GÜCLƏNİR”

Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin fevralında İtaliyaya rəsmi səfəri zamanı Vatikanda olması ölkələr arasında əlaqələrin daha da dərinləşməsinə töhfəsini vermiş oldu. 2008-ci ildə Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Tarçiziyo Bertone Azərbaycana səfər etməsi bu əlaqələrin davamlığına dəlalət edir.

2016-cı il 2 oktyabr tarixində Roma Papası Fransiskin Azərbaycana səfəri dinlərarası, məzhəblərarası toqquşmaların baş verdiyi bir dönəmdə mühüm əhəmiyyət kəsb etmiş oldu. Azərbaycan müstəqilliyini qazandıqdan sonra bu, Vatikan başçısının Azərbaycana ikinci səfəri idi. Vatikan başçıları, adətən, əhalisinin əksəriyyəti müsəlman olan ölkələrə səfərlər etmirlər. Lakin Azərbaycan istisnadır. Azərbaycanda katoliklərin sayının, bir neçə yüz nəfər olmasına baxmayaraq, respublikamızda hökm sürən dini sabitlik Vatikan tərəfindən də maraqla qarşılanır. Prezident İlham Əliyev Roma Papasının Azərbaycana səfərini tarixi hadisə adlandırmış və bu səfərin Vatikan-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcəyini qeyd etmişdi: ”Bu səfər bütün bəşəriyyət üçün önəmlidir. Çünki bu səfər, bir də onu göstərir ki, sivilizasiyalararası dialoq yaşayır, davam edir, güclənir və biz çalışırıq ki, bu dialoqa yeni təkan verək... 2012-ci ildə diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Vatikan muzeylərində Azərbaycan sərgisi keçirilib. İlk müsəlman ölkəsinin sərgisi, məhz Azərbaycan sərgisi idi”.

Papa Fransisk isə çıxışında ölkəmizdə hökm sürən tolerantlığa xüsusi toxunmuş, müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasındakı sabitliyi, ahəngdarlığı yüksək qiymətləndirmişdir. Din xadimləri ilə dövlət xadimlərinin görüşməsi sülhün, əmin-amanlığın bərqərar olmasına töhfədir. Bu səfər də beynəlxalq aləmə, bir daha göstərdi ki, Azərbaycan dini və etnik toleratanlıq nümunəsidir.

Mövcud əlaqələr daha da dərinləşir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müqəddəs Taxt-Tacın ölkəmizdəki apostol nunsisi arxiyepiskop Pol Fitzpatrik Rasselin etimadnaməsini qəbul etməsi bu əlaqələrin dərinliyinin daha bir göstəricisi oldu. Dövlətimizin başçısı Azərbaycan ilə Vatikan arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayaraq, bizim bu günə kimi Roma Papası Fransiskin Azərbaycana səfərinin təəssüratı altında olduğumuzu bildirmişdi. Prezident İlham Əliyev onun ölkəmizdə olarkən, Azərbaycanla yaxından tanışlığının, insanlarla təmasda olmasının, eləcə də, Azərbaycandakı dini icmaların nümayəndələri ilə görüşünün önəmini qeyd etmişdi. Dövlət başçısı mədəniyyət sahəsindəki əlaqələrimizin xüsusi əhəmiyyət daşıdığını və bu əməkdaşlığın ikitərəfli münasibətlərin yaxşı əlaməti olduğunu bildirib. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan-Vatikan əlaqələri bir daha dünyaya nümayiş etdirir ki, müxtəlif coğrafi ərazilərdə yaşayan insanlar, fərqli mədəniyyətlərin, ayrı-ayrı dinlərin nümayəndələri bir-biriləri ilə necə uğurla əməkdaşlıq edə və dostluq əlaqələri qura bilərlər. Vatikan ilə Azərbaycan arasında əlaqələr ölkəmizin dövlətlərarası qurduğu dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinin göstəricisidir.

## BİRGƏYAŞAYIŞA VƏ QARŞILIQLI ƏMƏKDAŞLIĞA TÖHFƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbulu zamanı söhbət əsnasında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Kardinal Pietro Parolin ölkəmizdə dini abidələrin bərpası istiqamətində görülən işləri vurğulayıb, katolik kilsəsində aparılan bərpa işlərinə görə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirib.

Dünya ölkələri ilə münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında quran Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr təkcə Azərbaycanı əhatə etmir, onun miqyası geniş və şaxəlidir. Bu gün Azərbaycan ilə Vatikan arasında salınan körpünün yeni bir mərhələ təşkil etdiyini də qeyd etməliyik. Azərbaycan və Vatikan arasında münasibətlər bu gün yeni müstəvidədir. Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpa edilməsi böyük hadisəyə çevrildi və Vatikan rəsmiləri tərəfindən Fondun həyata keçirmiş olduğu layihə öz yüksək qiymətini aldı. Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi tədbirlər təkcə katakombaların bərpası ilə məhdudlaşmır.

Vatikan Apostol kitabxanasında olan Azərbaycana aid əlyazmaların bərpasını da qeyd etməliyik. Xatırladaq ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Sebastian katakombalarının bərpası işlərinə 2016-cı ildə başlanılıb. 2018-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva katakombaların açılışı mərasimində iştirak edib. Muzeydə Heydər Əliyev Fondunun dəstəyi ilə restavrasiya olunmuş 150 sarkofaq və ya onların fraqmentlərindən ibarət eksponatlar nümayiş olunur. Yer altında dörd mərtəbədən ibarət katakombada isə Fondun dəstəyi ilə restavrasiya olunmuş, eramızın IV əsrinə aid sarkofaq və barelyeflər yerləşir. İncildən səhnələrin yer aldığı barelyef erkən xristianlıq dövrü üçün mühüm abidələrdən sayılır. Tarixi İpək Yolunda yerləşən Azərbaycan multikultural bir dövlət kimi dünyada tanınır və ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır. Ökəmizdə hökm sürən mühit multikulturalizmi alternativi olmayan həyat tərzinə çevirib. Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə, nüfuza malik olan Azərbaycan birgəyaşayışa, qarşılıqlı əməkdaşlığa töhfələrini verir, prinsipial və ədalətli mövqeyi ilə seçilir. Dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa üstünlük verir. Bu dəyərlər insanları sülhə və dostluğa çağırır.

***Zümrüd BAYRAMOVA***

# Baykal-Amur Magistralının tikintisi Heydər Əliyevin misilsiz xidmətlərinin nəticəsidir

Ümummilli lider Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, Sov. İKP MK Siyasi Bürosunun üzvü vəzifələrində çalışdığı illərdə bütün SSRİ xalqlarının məhəbbətini qazanmışdı. İndi həmin ölkələrdə, o cümlədən də Rusiya Federasiyasında da dahi rəhbərimizə bu məhəbbətin bariz nümunəsi yaşamaqdadır. Bu mənada bu gün də Rusiyada Sibir və Uzaq Şərqi birləşdirən Baykal-Amur Magistralının tikintisindən söz açılanda məhz ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrdən danışılır. Çünki Sibir və Uzaq Şərq regionlarının bütün təbii sərvətlərindən istifadə olunmasına, zəruri ehtiyac duyulan ərazilərə çatdırılmasına, ən əsası həmin bölgədə həyatın canlanmasına şərait yaradan, eləcə də həm Sakit Okean regionu, həm də Avropa ölkələri arasında ən qısa marşrut olan və ümumi uzunluğu isə 4324











kilometr olan bu nəhəng layihənin reallaşdırılması birbaşa ümummilli lider Heydər Əliyevin gərgin əməyinin, misilsiz xidmətlərinin nəticəsidir.

Məlumdur ki, Sibir və Uzaq Şərq zonasının əlverişli olmayan sərt iqlimi, ərazilərin mürəkkəb geoloji struktura malik olması inşaat işlərinin aparılması üçün təsəvvürəgəlməz çətinliklər yaradırdı. Bir çox yerlərdə xətlər bataqlıqlardan, meşə massivlərindən keçirdi, yeraltı suların qazılan tunellərə axması inşaatçıları ciddi çətinliklərlə üz-üzə qoyurdu. Lakin bütün bunlar ümummilli lider Heydər Əliyevin qətiyyətinə və iradəsinə təsir etmirdi. Ulu öndər Heydər Əliyev hələ Azərbaycana rəhbərlik etdiyi dövrdə belə əsrin tikintisinə çevrilmiş magistralda çalışan, əsl qəhrəmanlıq göstərən, bütün çətinlikləri hünərlə dəf edən azərbaycanlıların fəaliyyəti ilə yaxından maraqlanır, qayğı və diqqətini əsirgəmirdi. Tikintidə çalışan azərbaycanlılara respublikaya qayıdandan sonra mənzil verilməsi və digər sosial problemlərinin həllinə yaxından köməklik göstərilməsi də baş tutdu.

SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, Sov. İKP MK Siyasi Bürosunun üzvü təyin olunduqdan sonra ulu öndər Heydər Əliyev əsrin nəhəng tikintisi Baykal-Amur Magistralının inşası üzrə yaradılmış dövlət komissiyasının sədri oldu. Məhz, 1984-cü ildə Siyasi Bürosunun üzvü Heydər Əliyev komissiya sədri kimi, işlərin gedişi ilə əyani tanış olmaq üçün Baykal-Amur Magistralı marşrutu üzrə səfərə çıxdı. Bu həm də Baykal-Amur Magistralının tikintisi müddətində Siyasi Büro səviyyəsində ilk rəhbər şəxsin səfəri idi. Bu səbəbdən də bu səfər Baykal-Amur Magistralının tikintisində dönüş yaratdı. Ümummilli lider Heydər Əliyev tikintidə işlərin keyfiyyətinə xüsusi diqqət yetirir, sıravi adamlarla səmimi söhbətlər edir, onların problemləri ilə yaxından maraqlanırdı. Hətta, ulu öndər Heydər Əliyev Siyasi Büro üzvü kimi həmin vaxt təhlükəsizlik qaydalarına tam riayət etmədən su ilə dolmuş, bəzən torpaq laylarının qopduğu 7 kilometrlik tunellə dizə qədər suyun içində irəlilədi. Bütün bunlar da öz növbəsində ağır şəraitdə işləyən insanları daha da ruhlandırırdı. Mübaliğəsiz deyilməlidir ki, ulu öndər Heydər Əliyevin iradəsi və qətiyyəti sayəsində magistralın iş gedən bütün sahələrində təchizat məsələləri və problemlər qısa vaxtda operativ həllini tapırdı.Bu səbəbdən də Baykal-Amur Magistralının şəbəkəsi genişlənir, yeni-yeni stansiyalar, tunellər istifadəyə verilir, körpülər istismara buraxılırdı. O illərdə çalışan insanlar bildirirlər ki, əgər Heydər Əliyevin qətiyyəti olmasaydı, Baykal-Amur Magistralının tikintisinin başa çatması müşkül bir məsələyə çevrilərdi.

Bir sözlə, ulu öndər Heydər Əliyevin Sovet İttifaqının ən nəhəng infrastruktur layihəsi hesab olunan BAM-ın uğurla həyata keçirilməsində müstəsna xidmətləri bu gün də məmnuniyyətlə xatırlanır. Ulu Öndər SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı illərdə nəqliyyat sahəsinin kuratoru olaraq mükəmməl təşkilatçılıq bacarığı, qətiyyəti və inamı sayəsində BAM-ın inşasının uğurla başa çatdırılmasına nail olub. Heydər Əliyev qısa bir müddətdə BAM-ın coğrafi ərazisini mühüm sənaye bazasına, sosial-iqtisadi və mədəni mərkəzə çevirməyi bacardı.

Ulu öndər Heydər Əliyevin birbaşa nəzarət etdiyi BAM-ın tikintisi öz çətinliyi və ziddiyyətləri ilə seçilirdi. Miqyasına görə dünyada analoqu olmayan layihə böyük olduğu qədər də çoxsaylı problemlərə malik idi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmdə tikintisi vüsət götürən magistralın 210-cu kilometrliyində azərbaycanlılar tərəfindən Ulkan stansiyası inşa edildi və onun ətrafında Ulkan qəsəbəsi salındı. Həmin qəsəbənin salınması isə birbaşa Ulu Öndərin nəzarəti altında həyata keçirilirdi. Onu da əlavə edək ki, Azərbaycandan ilk inşaat dəstəsi bu ərazilərə 1975-ci ilin əvvəlində gəlib. O vaxt Ulkan qəsəbəsinin yalnız adı var idi. İndi bu yerlər tanınmaz dərəcədə dəyişib, yeni insan məskəni salınıb. Azərbaycanlıların da iştirakı ilə tikilən və uzunluğu 209 kilometr olan dəmir yolu xəttinin çəkilişi vaxtından 2 ay əvvəl başa çatdırıldı. Əməkdar mühəndis, "Anqoya" layihəsinin baş mühəndisi və konstruktoru olmuş Təyyar Hüseynli xatirələrində deyirdi k: "Baykal-Amur dəmiryol magistralının (BAM) tikintisi gedirdi. "Ulkan" qəsəbəsi dəmiryol vağzalı ilə birlikdə respublikamız tərəfindən müvəffəqiyyətlə inşa edilmişdi. Sonra ikinci bir stansiyanın - "Anqoya"nın da tikintisi bizim respublikaya həvalə olundu. "Ulkan"ın layihəsi tam şəkildə bizim institutda işlənsə də, "Anqoya"nın layihəsi Rusiyanın Novosibirsk şəhərinin "Sibqiprotrans" layihə institutunda işlənmiş və təsdiq edilmişdi. Respublikamızın qarşısında isə bu layihə əsasında stansiyanın yalnız tikintisinin aparılması məsələsi qoyulmuşdu. Ulu öndər Heydər Əliyev bu illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışırdı və BAM-ın tikintisinə rəhbərlik birbaşa ona həvalə edilmişdi. Azərbaycan KP MK-nın göstərişi ilə "Anqoya" stansiyasının vağzalı və qəsəbənin ictimai-ticarət mərkəzi Azərbaycan klassik milli memarlığı üslubunda yenidən layihələndirilib inşa edilməli idi. Bizə aydın idi ki, bu birbaşa dahi Azərbaycan oğlu Heydər Əliyevin tapşırığıdır".

Bu məqamda eyni stansiyanın təməlqoyma mərasimində Heydər Əliyevin rəhbəri olduğu komissiya üzvlərini müşaiyət etmiş jurnalist Yevgeni Boqaçov xatirələrini də qeyd etmək yerinə düşər: "Anqoyaya gəlməzdən əvvəl Severobaykalskda keçmiş "AzBAMstroy" tikinti-quraşdırma idarəsinin rəisi, sonralar mülki qurğuların Severobaykal hissəsinin əməkdaşı İsrafil Hacıyev ilə tanış olmuşdum. O deyirdi: "Ulkanı tikib arxayınca Vətənə dönə bilərdik. Ancaq Baykalın o tayında yarımçıq qalmış Anqoya stansiyasının tikintisini başa çatdırmağı özümüzə borc bildik. 1984-cü ildə Heydər Əliyev BAM-a gəldi. Mən tikinti-quraşdırma idarəsinin rəhbəri kimi ona elə beləcə də dedim: "Anqoyaya getmək istəyirik!" Özümüz istəməsək, heç kim bizi məcbur etməyəcəkdi

Azərbaycan Mərkəzi Komitəsi və hökuməti gənclərin təşəbbüsünü bəyəndi. Bu məsələdə Heydər Əliyevin rəyi həlledici rol oynadı. O, Baykal-Amur Magistralında həmvətənlərinin işini yüksək qiymətləndirmişdi. Gələcək Anqoya stansiyasının yerində o vaxt yalnız ağaclar qırılmışdı. 1984-cü ilin sentyabrında azərbaycanlılardan ibarət ilk briqadalar yığma evləri quraşdırmağa, yeni qəsəbəni istiliklə təmin etmək üçün qazanxana və istilik xətləri çəkməyə başladılar."

Ümumiyyətlə, Sovet cəmiyyətində BAM-ın tikintisinə münasibət də birmənalı deyildi. M.Qorbaçovun elan etdiyi yenidənqurmaya qədər onun nəhəngliyi dövlətin böyüklük və məğlubedilməzliyi kimi qəbul edilirdisə, yenidənqurma dövründə ötən illərin bütün nailiyyətlərinin kiçildilməsi prosesi başlandı. Ancaq Heydər Əliyevin ölkə sənayesinin inkişafı məqsədilə irəli sürdüyü təşəbbüslərin bu günün özündə də məmnunluqla xatırlanması Azərbaycan xalqı və onun Liderinə olan ehtiramın nümunəsi sayıla bilər. Təsadüfi deyil ki, 2008-ci il iyulun 18-də BAM-ın Anqoya stansiyasında istifadəyə verilən vağzala Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı verildi. Tədbirdə Moskva, Bakı, Severebaykalsk, İrkutsk və digər şəhərlərdən yüksək səviyyəli qonaqların iştirakı Ulu Öndərin əziz xatirəsinə olan ehtiramın təzahürü idi. Məhz, 1984-cü ildə Baykal-Amur Magistralı əsasən istifadəyə verildi. Lakin 2008-ci il iyulun 18-də azərbaycanlı inşaatçılar tərəfindən inşa olunmuş Baykal-Amur Magistralında Şərqi Sibir dəmiryolunun Anqoya stansiyasındakı vağzala Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adının verilməsi münasibətilə təntənəli mərasimin keçirilməsi, burada Ulu Öndərin xatirə lövhəsinin açılması onun xidmətlərinə olan böyük hörmət və ehtiramın göstəricisi oldu. Anqoya stansiyasına dünya şöhrətli siyasi xadim Heydər Əliyevin adının verilməsi belə tarixi hadisə çevrildi. Vağzala görkəmli siyasi xadim Heydər Əliyevin adının verilməsi, Şərqi Sibirdə onun xatirəsinin əbədiləşdirilməsi eyni zamanda BAM-ın xalqlarımız arasında dostluq rəmzinə çevrildiyini nümayiş etdirir. Ona görə də Baykal-Amur Magistralı layihəsinin reallaşmasında Heydər Əliyevin əvəzsiz xidmətləri Azərbaycan və Rusiya xalqları tərəfindən heç zaman unudulmayaq. Azərbaycan xalqı dahi dövlət xadiminin nəhəng və yaddaqalan fəaliyyəti ilə bu gün fəxr etdiyi kimi, əsrlər sonra da fəxr edəcək.

***Tünzalə İsmayılova,***
***Yazı "Azərbaycan Dəmir Yolları" QSC və Azərbaycan Mətbuat Şurasının Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında keçirdiyi müsabiqəyə təqdim olunur***

# “Tovuz döyüşləri II Vətən müharibəsinə açılan qapı oldu”

*EKSPERT ŞƏRH ETDİ*

**“Bütün irili-xırdalı hərbi əməliyyatları düşmənin təxribatlarının qarşısını almaq və ona gücümüzü göstərmək kimi qəbul etmək olar. Əlbəttə ki, hər bir əməliyyat Azərbaycanı qəti qərar qəbul etməyə və qələbəyə yaxınlaşdırdı. Üç il bundan öncə baş vermiş Tovuz hadisələri də öz xüsusiyyətləri ilə seçilir. Tovuz rayonu strateji ərazidir, eyni zamanda beynəlxalq kommunikasiyalar və çox geniş logistik imkanlara malikdir. Tovuz döyüşləri zamanı düşmən təxribatı bir daha göstərdi ki, onlar həyasızcasına yeni ərazilərin işğalı barədə düşünürlər”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov deyib.**





Onun sözlərinə görə, bütün bunlar gələcəkdə vəziyyətin gərginləşəcəyi və hansı istiqamətdə cərəyan edəcəyindən xəbər verirdi: ”Tovuz döyüşləri hərbi-siyasi əhəmiyyəti yüksək olan bir hadisə idi. Çünki bu döyüşlərdən sonra artıq Ali Baş Komandan İlham Əliyev ”diplomatiyada hücum” ifadəsini işlədərək siyasi üstünlüyü qazanmış oldu. Bunun nəticəsində Azərbaycan daha çox güc variantına keçəcəyi ilə bağlı beynəlxalq qurumları məlumatlandırdı. Müharibə başlayacağı halda Türkiyə və Pakistanın ölkəmizi dəstəkləməsi siyasi riskləri minimuma endirdi. Hələ Aprel döyüşlərində Azərbaycan hərbi rəhbərliyi Moskvada atəşkəs barədə yenidən qərar qəbul etməli oldu. Əlbəttə, bu bir təzyiq idi. Məhz bu təzyiqlərin azalması istiqamətində mühüm addımların atılması Azərbaycanın gələcəkdə ərazi bütövlüyünü bərpa etmək üçün zəmin rolunu oynadı”.

Ekspert sözlərinə davam edərək bildirib ki, Tovuz döyüşləri 44 günlük müharibəyə açılan qapılar kimi də qəbul edilə bilər: ”Digər tərəfdən Tovuz hadisələrindən sonra cəmiyyət öz birliyini göstərdi. Xalq artıq işğal ilə barışmamaq, ərazi bütövlüyünü bərpa etmək üçün öz iradəsini ortaya qoydu. Nəticədə Tovuz döyüşlərində düşmənə layiqincə cavab verərək Azərbaycan açıq-aydın güc siyasəti ilə hərəkət edəcəyini bildirdi. Tovuz döyüşlərindən sonra Azərbaycan-Ermənistan münasibətlərindən barıt qoxusu gəlməyə başladı. Artıq hər kəs bilirdi ki, yaxın zamanda Azərbaycan ədalət yolunda qəti addımlar atacaqdır. Ali Baş Komandan məqam çatdıqda əks-hücum əmrini verərək öz ordusunu qələbəyə apardı və qısa bir müddətdə ərazi bütövlüyünü bərpa etməyə nail oldu. Bununla da Azərbaycan bütün dünyaya sübut etdi ki, heç kim Azərbaycana şərt qoya bilməz. Dövlətimizin ərazi bütövlüyü Azərbaycan üçün hər şeydən üstündür”.



***Ləman Sərraf***

# “Erməni təxribatı danışıqları pozmağa hesablanıb”

“Qarabağ ermənilərinin ”liderlərinin” və onların Ermənistandakı dəstəkçilərinin son dərəcə qeyri-konstruktiv mövqe tutması və mütəmadi olaraq təxribatlar törətməsi heç kim üçün sirr deyil. Heç təsadüfi deyil ki, Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında erməni silahlıları tərəfindən törədilən təxribatdan və Azərbaycan Ordusunun keçirdiyi növbəti ”Qisas əməliyyatı”ndan sonra Qarabağdakı ermənilərin ”parlamenti” Ermənistan Xarici işlər nazirliyinin rəhbərliyinə ABŞ-dakı danışıqları dərhal dayandırmaq tələbi ilə müraciət etmişdi”. Bunu ”Alyans” strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov ”Səs” qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu tələb Qarabağ ərazisində erməni silahlıları tərəfindən törədilən təxribatların əsas məqsədinin danışıqlar prosesini pozmaq olduğunu bir daha bütün dünyaya nümayiş etdirmişdi: ”Görünür bunu yaxşı anladıqlarından nə ABŞ hakimiyyətinin nümayəndələri, nə də Ermənistan Xarici işlər naziri bu ”tələbi” ciddiyə almamışdılar və ona heç bir əhəmiyyət vermədən danışıqları davam etdirmişdilər.



Eyni zamanda, qarabağ ermənilərinin ”parlamenti”nin son iclasında Arayik Aratyunyanın verdiyi bəyanat onların sülh danışıqlarını pozmaq niyyətlərini bir daha ortaya qoymuşdu. ”Bizim burda olmağımızın əsas səbəbi öz müqəddəratımızı təyin etmə ümidləri ilə bağlıdır”-deyən erməni təmsilçisi həm Vaşinqtonda və Brüsseldə, həm də Moskvada aparılan danışıqlarla qətiyyən səsləşməyən mövqe ortaya qoymuşdu və sülh danışıqlarında onların qətiyyən maraqlı olmadığını bir daha təsdiqləmişdi. Eyni zamanda, bu bəyanat Qarabağdakı erməni separatçılarının ümidlərini tamamilə itirdiklərini bütün dünyaya nümayiş etdirmişdi.

Təxribatların davam etdiyi bir şəraitdə Azərbaycan hakimiyyəti son dərəcə müdrik siyasət yeridir, ermənilərə, onların havadarlarına bəhanə verməmək üçün əlindən gələni edir. Ancaq bu cür səbrli yanaşma sonsuza qədər davam etməyəcək və silahlı qüvvələrimiz qəti addımlar atmaq, erməni silahlılarını tərksilah etmək məcburiyyətində qalacaqdır. Qarabağdakı silahlıları tərksilah etmək məqsədilə keçiriləcək antiterror əməliyyatının nə vaxt başlayacağı barədə qərarı isə silahlı qüvvələrin Ali Baş Komandanı verəcəkdir. Çünki o reallıqları hamıdan yaxşı bilir və hansı addımın nə vaxt atılması barədə ən düzgün qərarı da o verə bilər. Son aylar baş verən hadisələr, atılan tarixi addımlar bunun həqiqət olduğunu hamıya bir daha nümayiş etdirdi”.

***GÜLYANƏ***



**Təhmasib Novruzov**

# Ət iylənib, neyləməli?

**Məni kimsə qınamasın. Hərdən oturub son otuz ildə qarşılaşdıqlarımızı saf-çürük edəndə, qeyri-ixtiyari içimdən bir hiss keçir ki, kaş SSRİ adlanan millətlər həbsxanası heç dağılmayaydı və biz dünyadan bixəbər yaşamımızı davam etdirərdik.**

Yox, kimsə elə düşünməsin ki, həyatının az qala əlli ilini Azərbaycanın azadlığına, müstəqil dövlətçiliyimizin möhkəmlənməsinə həsr etmiş biri olmağıma rəğmən, indiyə kimi yaşadıqlarımdan və fəaliyyətimdən peşmanam. Qətiyyən! Gec-tez millətlərin gerçək həbsxanasına çevrilmiş sovet imperiyası dağılmalı və tarixin arxivinə gömülməli idi. Bu tarixi zərurətin reallaşmasında az-çox əməyi olan bir insan kimi keçmişimlə qürur duyuram. Amma keçmişin o bəlasından qurtulub, indi elə bəlalar girdabında çabalamaq zotrunda qalmışıq ki, adam yanıb-yaxılmaya bilmir. Təzə-təzə müstəqillik əldə edəndə dünyanın güc mərkəzləri bizə dəstəkləri ilə gözlərimizi necə qamaşdırdılarsa, uzun müddət gerçəkləri görməyə açıq göz tapa bilmədik. Amma elə ki, azadlığa çıxan keçmiş sovet respublikalarına dəstək haqqında qərar qəbul edən ABŞ-nin həmin qərara məşhur 907-ci düzəlişi əlavə edərək, yalnız Azərbaycanı bu dəstəkdən məhrum etdi, hələ onda bir az pəjmürdə olduq ki, yanan da biz, yaman da biz? Torpaqlarımızı Kremlin dəstəyi ilə işğal edən, yurdlarımızı xarabazara çevirən, xalqımıza qarşı qətliam törədən, bir milyon insanı ev-eşindən didərgin salan Ermənistana yox da, bütün bu məşəqqətlərə düçar edilən Azərbaycana qarşı belə bir qərarı qəbul edənlər hansı ədalətdən danışa bilərlər? Buna dözdük. Sonra otuz il turist səfərləri ilə regiona gəlib-gedən Minsk Qrupu adlanan gorbagor qurumun xalqımıza qarşı ədalətsiz münasibətlərini gördük, biz dedik, onlar özlərini karlığa vurdular, zorla bizi məğlubiyyətlə barışdırmaq istədilər. On illər boyu dözsək də, axırda öz göbəyimizi özümüz kəsməli olduq və qəhraman şəhidlərimizin, qazilərimizin qanı-canı bahasına dünyaya məğrurluğumuzu sübut etdik. 44 gün ərzində 30 illik işğala son qoyan, əsrin zəfərinə imza atan xalqın haqq səsini eşitmək istəməyənlərə bu yolla səsimizi eşitdirdik. Bu dəfə özünü dünyada haqqın-ədalətin carçısı kmi təqdim edən avropanın başbiləni Fransa başladı çığallığa. Ha dedik ki, etmə, eləmə, makaronsan, gir qazana, qovrul, sənin siyasətlə nə işin, amma eşitməzdən gəldi.

Qadasın aldığım Prezidentimiz də çox dözdü, az dözdü, axır ki, dünyanın BMT-dən sonra ən mötəbər təşkilatı olan Qoşulmama Hərakatının zirvə toplantısında firənglərin ”ədalət”indən, ”insanpərvərliyi”ndən gen-bol danışdı. Tarixi faktları bir-bir sadalamaqla qaçılmaz gerçəklikləri bütün dünyaya çatdırdı və sonra da, belə bir ölkənin bizim regionda guya ədaləti bərqərar etməsi haqqında sərsəmləmələrini də deməyi unutmadı. Üstündən həftə keçməsinə baxmayaraq Müzəffər Ali Baş Komandanımızın cəsarətlə söylədiyi bu fikirlərə Fransa rəsmilərində hələ də cavab gəlməməsi o demək deyil ki, firənglər bu ittihamları ədalətli hesab edib, qəbul etdilər. Yox, qətiyyən belə deyil. Sadəcə, bir həftədir baş sındırırlar, hələ neçə həftə bundan sonra omayan başlarını divarlara döyəcəklər ki, tutarlı bir cavab tapsınlar. Amma tapa bilmirlər və bilməyəcəklər də... Xülası, firənglərin məsələsin buraxmışıq Dərviş Babamız Məstəli şahın öhdəsinə, inşallah Əlixalar, Vəlixalar bu dəfə firənglərin məsələsin yarımçıq qoymazlar. Bu yandan da, dini bir, tarixi bir, bizim babalarımızın min illər boyu qoruyub Vətən elədiyi torpaqlarda Qərbin dəstəyi ilə layihə-dövlət yaradan fars-mollaları da başladılar üstümüzə... Nə isə, özləri çığırdı, özləri bağırdı, axırda da özləri ayağımıza gəldi ki, bir... səhvdi olub... Bunları ona görə sadaladım ki, biz müstəqil olandan bəri iki-üç qardaş dövlətlər istisna olmaqla, haqdan-ədalətdən danışan dünya güclərinin, o cümlədən müsəlman dövləti olan İranın bizim haqqımızı, hüquqmuzu otuz ildir ki, görməzdən gəlirlər və biz da artıq bunu təbii qəbul etməyə məcbur olmuşuq.

Amma Qızıl Xaç Cəmiyyəti adlanan bir qurumun da erməni lobbisinin əlində oyuncaq olacağını təsəvvür belə etməzdik. Ölmədik, bunu da gördük. Hələ kim bilir, daha nələr görəcəyik. Sən demə dünya elə gündəymiş ki, elə qapalı yerdə qalıb, onun gedişatından bixəbər olmaq daha yaxşıymış, nəinki azadlığa çıxıb bunların şahidi olmaq! Amma mən pessimist deyiləm. XXI əsr türk əsridir. Türk dünyası bu dünyanın nizamını bərqərar etmək üçün yenidən tanrı tərəfindən meydana göndərilib. Təki türkün birliyi pozulmasın, dünyanın xilası üçün ümid yeri olan türk dünyası, məhz Əliyev-Ərdoğan tondemı ilə yeni dünya düzənində haqqın-ədalətin təntənəsini dünyaya göstərəcək. Tanrım qorusun və dəstəyini əsirgəməsin, inşallah!

# Leonid Kalaşnikov: "Danışıqlar prosesində Bakı tamamilə ədalətlidir"

## Dumanın komitə sədri: Avropa İttifaqının monitorinq missiyası Ermənistan-Azərbaycan sərhədində yalnız qıcıqlandırıcı rol oynayır

**Rusiya Dövlət Dumasının MDB İşləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Leonid Kalaşnikov Ermənistan-Azərbaycan nizamlanması ətrafında gedən proseslərlə bağlı "Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**





*- Leonid İvanoviç, son həftələr Fransa prezidenti Makronun Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı qalmaqallı açıqlamaları diqqət mərkəzində olub. Üstəlik, həm rəsmi Bakı, həm də tamamilə başa düşüləndir k, rəsmi Moskva onlara son dərəcə mənfi reaksiya verdi...*

- Qoşulmama Hərəkatının Koordinasiya Şurasının nazirlər səviyyəsində keçirilən iclasında Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makronun ədəbsiz davranışına, eləcə də Fransanın müstəmləkə keçmişinə görə cavab verməli olması haqda səsləndirdiyi bəyanatlar göstərir ki, Bakı tamamilə ədalətlidir. Fransa bu gün də müstəmləkəçilik siyasətini davam etdirməyə çalışır. Təbii ki, bu heç bir çərçivəyə sığmır. İndi Qərbin məqsədi Cənubi Qafqaza soxulmaqdır.

Qərb bu və ya digər regionda öz maraqlarını qlobal üstünlüyünə can atmaq prizmasından həyata keçirir. Ona görə də Cənubi Qafqaza dırmaşır, Rusiyaya, Çinə təzyiq göstərməyə çalışır.

Onun üçün son məqsəd Azərbaycan və Ermənistan xalqlarının taleyi deyil, münaqişənin yekun şəkildə əlverişli şəkildə həlli deyil. Bu gün Qərbin Zaqafqaziyada gördüyü hər şey, bu regiondakı bütün siyasətini Rusiya ilə münaqişənin "görünüşü" ilə nəzərdən keçirir - Rusiya Federasiyasını regional proseslərdən necə çıxarmaq və ya onu "itələmək", digər hallarda Ermənistan-Azərbaycan prosesinə konkret Qərb ölkəsində- məsələn, Fransada və ya Amerikada müəyyən təsir gücünə malik olan diasporaların gözü ilə baxmaqdır. Və Makron tərəfindən vaxtaşırı səslənən bu kimi qalmaqallı bəyanatlarla, o öz elektoratının müəyyən təbəqələrini sevindirməyə çalışır.

Bildiyiniz kimi, Ermənistan-Azərbaycan nizamlanması məsələsində mənim mövqeyim həmişə birmənalı olub: Fransa və ABŞ hələ ATƏT-in Minsk qrupunun həmsədrləri olduqları müddətdə Parisin "səyləri" sayəsində razılaşma mümkün olmayıb və Vaşinqton heç vaxt münaqişənin real həllində və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasında maraqlı olmayıb. Qarabağ münaqişəsi onilliklər ərzində həll olunmadı, çünki bu, Amerika və Fransaya sərfəli idi. Onlar Rusiya ilə Qərb arasında gərginliyin artmasını bəhanə edərək, onlarla heç bir əlaqəsi olmayan, minlərlə kilometr aralıda yerləşən regionların işlərinə qarışmaq üçün bəhanə kimi istifadə edərək, öz geosiyasi maraqlarını təbliğ ediblər və təbliğ etməkdə davam edirlər. Onlar üçün münaqişə tərəfləri, aralarındakı bəzi ziddiyyətlər alver predmetidir.

Ona görə də mən Qərbin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına inanmıram. Biz bu yaxınlarda ABŞ dövlət katibinin iştirakı ilə Bakı ilə İrəvan arasında Amerika platformasında aparılan danışıqları, Fransanın ara-sıra iştirakı ilə aparılan danışıqları görürük. Qərb "danışıqçılarının" öz vasitəçiliyini qanuniləşdirməyə çalışması başa düşüləndir. Amma bu vasitəçilikdə daim geosiyasətə qarışmağa çalışırlar.

Rusiya indi əsasən Ukraynadakı xüsusi hərbi əməliyyatla məşğuldur. Və bütün qüvvələrin bu işə yönəldilməsi Moskvanı Cənubi Qafqazdakı vəziyyətdən bir qədər yayındırır. Buna baxmayaraq, Rusiya prezidentinin iştirakı ilə mütəmadi olaraq ikitərəfli və üçtərəfli formatda təmaslar, müzakirələr, işçi qrupların görüşləri həyata keçirilir. Mənim dərin əminliyim ondan ibarətdir ki, yalnız Rusiya-Azərbaycan-Ermənistan üçlüyündə Bakı ilə İrəvan arasında münasibətlərin normallaşdırılmasında istənilən səmərəli nəticə əldə edilə bilər. Qərb "tərəfdaşlarının" vasitəçiliyi hamısı oyundur. Əliyev bu "oyuncaqlara" boyun əyməyin mümkün olmadığını görür və bunu Makronun misalında olduğu kimi açıq şəkildə göstərir, nümayiş etdirir. O, görür ki, Parisin proseslərə təsir etmək cəhdləri müsbət heç nə gətirmir.

*- ABŞ və Aİ prosesə fəal girişməklə bir neçə raundda üç gün mərhələli danışıqlar apardıqlarını göstərməyə çalışdıqları halda Moskva prosesi necə sürətləndirə bilər? İyulun 21-də Avropa Şurası rəhbərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə görüşü planlaşdırılır. Payız üçün beştərəfli formatda daha bir görüş planlaşdırılıb- Azərbaycan, Ermənistan liderləri, Almaniya kansleri, Avropa Şurasının rəhbəri, Fransa prezidenti. Yəni Qərb hər şeyi əvvəlcədən hesablayıb...*

- Eyni şəkildə Qərb Ukraynadakı vəziyyəti Normandiya formatı (Almaniya, Rusiya, Fransa, Ukrayna) və Minsk razılaşmaları çərçivəsində "həll etdi". Qərb tərəfi etiraf etdi ki, sonda onların tərəfindən məqsəd razılaşmaları yerinə yetirmək deyil, zamanla oynamaq olub. Və onlar Ukraynada belə oyun oynadılar. Bunu Merkel və Makron da təsdiqləyib. Ona görə də onların Ermənistan-Azərbaycan prosesinə təmiz ruh və vicdanla daxil olmasına inanmıram.

Azərbaycanla Ermənistan arasında vəziyyət "ərazidə" vaxtaşırı hərbi relsdə "hərəkət edir". Biz görürük ki, Avropa İttifaqının monitorinq missiyası adlanan qurum Ermənistan-Azərbaycan sərhədində vəziyyətə necə "nəzarət edir" və sonda yalnız qıcıqlandırıcı rol oynayır.

*- Mayın 25-də Kremldə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin görüşü oldu. Bundan sonra Rusiya baş nazirinin müavini Overçuk bildirib ki, tərəflər nəqliyyat və iqtisadi əlaqələrin açılmasına və dəmir yolunun tikintisinə doğru irəliləyirlər. Təəssüf ki, hələlik nəticəsini görmürük. Yeri gəlmişkən, dəmir yolunun keçməli olduğu yerlər o vaxtdan bəri vaxtaşırı atəşə tutulur ...*

- Nizamlanmada nəticələrin əldə olunmasına münaqişənin bu və ya digər tərəfində ABŞ, Fransa, Aİ-nin Transqafqazdakı fəaliyyəti ilə bağlı yaranan illüziyalar, onların kömək edə biləcəyi illüziyaları mane olur. Bu və ya digər tərəfin prosesində hansısa maraqlara kömək etmək olar. Belə illüziyaların mürəkkəb nəticələri küçələrə, parlamentlərə sıçrayır... Ona görə də illüziyalar səngiyir. Eyni zamanda, o da aydındır ki, məsələn, Ermənistan 2020-ci il noyabrın 9-da üçtərəfli bəyanatın imzalanmasından sonra Ermənistan-Azərbaycan vəziyyətində yaranmış status-kvonu rəsmən tanımağa razılıq versə, o zaman ona üstünlüklər veriləcək. Ermənistan, obyektiv olaraq, nəqliyyat və iqtisadi əlaqələri blokdan çıxarmağa, bütün qonşuları - o cümlədən, Azərbaycan və Türkiyə ilə əlaqələr qurmağa daha çox ehtiyac duyur. Mənə elə gəlir ki, Ermənistan və Azərbaycan tədricən bu yolla getməlidir.

Bəli, dəmir yolu ilə bağlı sənədin imzalanması Kremldəki üçtərəfli görüşdən sonra baş tutmadı. Amma bu, təəssüf ki, mürəkkəb prosesdir. Və tamamlanmalıdır. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatının hər bir bəndi onun həllini tələb edir. Bu məqamların həyata keçirilməsi yolunda, gördüyümüz kimi, xeyli sayda problemlər var. Onlar həll olunmaz görünürlər. Amma siyasi iradə ilə hər şey mümkündür. Amerika və Qərbin "vasitəçiliyinin" dərinləşməsi gələcəkdə daha bir eskalasiyaya gətirib çıxaracaq. Ancaq münaqişəni həll etmək üçün bu ən doğru yol deyil.

*- Həm Azərbaycan, həm də Ermənistan qeyd etməkdə davam edir ki, danışıqlar prosesində ən çətin mövzu Qarabağın erməni icmasının yaşadığı hissəsidir.*

- Doğrudan da, bu məsələ mürəkkəbdir. Əminəm ki, Rusiya, Azərbaycan və Ermənistan vəziyyətdən çıxış yolu tapacaqlar. Dərhal deyil, amma edəcəklər.

Təhlil edilərsə, istənilən regional münaqişə ilə bağlı Qərbin siyasətində paralellər görmək olar. Onun arxasında çox da xoş olmayan tərəfdaş dayananda, ilk növbədə öz geosiyasi maraqlarını (bölgə ölkələrinin maraqlarını deyil) düşünəndə bu və ya digər məsələni həll etmək çox çətindir.

Biz nizamlanma prosesində irəli getməli və çıxış yollarını axtarmalıyıq. Minlərlə kilometr uzaqda olan və öz maraqlarını düşünənlərin iştirakı ilə deyil. Qonşular arasında münaqişələrin həlli vacibdir.

***Tərcümə - Elçin Bayramlı***



**Lalə Mehralı**

# Kəkili yandan qoyan dəllək

***Gənclər kəşf olunmağı gözləyən ən böyük dəyərlərimizdən biridir. Gənclik, öz yolunu və həyat tərzini təyin etməyin başlanğıc dövrüdür. Bəşəriyyət cəmiyyət kimi formalaşmağa başladığı vaxtdan gəncliyə xüsusi önəm verib. Bütün dinlərdə gənclərlə bağlı hikmətli sözlər deyilir, bütün müdriklər gənclərin gələcəyə körpü olması barədə danışıb, mənəvi dəyərlərə önəm verilərək tərbiyə olunmalarını əsas tutub, bütün xalqlar vətənpərvərliyi onların timsalında təbliğ ediblər.***

Bu gün çox təəssüflər olsun ki, biz uşaqlarımızı milli düşüncə sahəsində yetişdirə bilmirik. Onların milli kimliyini, vətənpərvərlik ideallarını düşünməyə vaxtı olmur. Fasiləsiz olaraq imtahana hazırlaşan, durmadan oxuyan, kurikulum girdabında boğulan gənclik milli-mənəvi məsələlərə vaxt ayıra bilmir. Biz hər baxımdan savadlı, yenilikçi, ixtiraçı gənclik yetişdirəcəyik, amma bunun əvəzinə mənəvi və milli dəyərlərə malik nəsil yetişdirə bilməyimiz sual altındadır. "İkisi bir arada olmazmı?" deyə soruşa bilərsiniz. Əlbəttə mümkündür. Lakin bunun üçün gənclərə nəfəs almaq üçün şərait yaratmalı, yüklərini azaltmalıyıq.

Bu günkü təhsil sistemi onlara innovativ bir gələcək vəd edirmi? Birmənalı olaraq yox. Onların potensialını üzə çıxaracaq təhsil sistemi yaradılmalı və tətbiq edilməlidir. İnkişaf etmiş ölkələrdə qəbul edilməyən təhsil proqramları ilə şagirdlər üzərində dəlləklik edən təhsil sistemimiz bunu onlara borcludur. Effektiv öyrənmə və imkanları özündə ehtiva edən dinamik özül yaradılmalıdır. Fərqlilik yaratmaq adı ilə naməlum təhsil proqramlarını tətbiq edib uşaqların beynini qarışdırmaq yerinə effektiv üsullar tapılmalıdır.

Gənclərin analitik və düşünmə qabiliyyətini inkişaf etdirməsi və uğur qazanması üçün onların qarşısındakı maneələri aradan qaldırmaq lazımdır. Ölkəmizdə nə qədər gənc dərsdən əlavə hər hansı beyin inkişafı vəd edən layihələrə, təlimlərə qoşula bilir? Bunun üçün maddi və mənəvi imkanı, şəraiti olurmu? Gələcək həyatına hazırlıq mərhələsində olan gənclər ahıl və qocalıq çağlarına hansı yatırımı edə bilirlər?

Dövrün gənci təhsil və iş arasında qalıb əzilir. Maddi problemləri başından aşıb-daşan biri üçün vətənpərvərlik ideyaları, milli kimlik məsələləri nə qədər real görünür? Gənclərin oxumaq həvəsi var, lakin bu yolda yalnız olurlar. Həyat günü-gündən çətinləşir, indi yaşamaq bahalıdır. İş və təhsil arasındakı məngənədə sıxışıb qalan gəncin elmə, təhsilə olan təşnəsi elə bu məngənənin dişləri arasında məhv olub gedir. Bu problemlərin fonunda sizcə onlar milli "mən"ini nə qədər düşünə bilər?

Ölkəmizin istədiyimiz səviyyəyə çatması üçün ən vacib məsələlərdən biri gələcəyimiz olan gənclərin hərtərəfli yetişməsi olacaq. Ən son innovasiyaların tətbiq olunduğu bir gələcək düşünün və bu gələcəkdə milli "mən"ini tanıyan, vətəninə xidmət edən gənclərin var olduğunu xəyal edin. Onlar özləri ilə birlikdə cəmiyyəti də yeniləyəcək. Elm və texnologiya üzərində hökmranlıq etməyi, yeniliklərdən şüurlu şəkildə istifadə etməyi bacaran, yeni kəşflər edən və eyni zamanda milli kimliyini unutmayan, bütün ixtiraları ilə vətəninə, xalqına xidmət etmək istəyən gənclik yetişdirmək bir ölkənin, bir dövlətin gələcəyə ən böyük yatırımıdır. Amma ölkəmizdəki təhsil sistemində olan çatışmazlıqlar həll edilmədikcə, xaricə beyin axını davam etdikcə bizim ölkəmiz üçün o gələcək gəlməyəcək. Hələ ki, kəkili yandan qoyan dəllək- təhsil sistemimiz bir qərara gələ bilmir.

# Virtual platformada söyüş söysəniz



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*







**Texnologiyanın inkişafı bizə texnologiya əjdahasını - interneti bəxş elədi. Onun həyatımıza daxil olması ilə olduqca çox üstünlüklər qazandıq, əsrimiz sürət əsri oldu, məsafələri kiçiltdik, əlaqələrimizi genişlətdik. Onun sayəsində işlər sürətləndi, bir günlük işi bir dəqiqəlik etdi.**

Amma onun bizə verdiyi zərərlər də az deyil. Bu zərərlər sırasında uşaqların porno saytlara, aqressiv oyunlara aludəsi də var, təhqirə, hədəyə məruz qalmaq da, söyüş söyüb qarşıdakı insanı alçaltmaq da. Şərəf və ləyaqətin təhqiri internetdə tez-tez rastlaşdığımız vəziyyətlərdən biridir. Maraqlıdır, internetdə, sosial şəbəkələrdə başqasını təhqir edən, söyüş söyən insanları qanunla hansı cəza gözləyir?

### İnternetdə kimisə təhqir etməzdən əvvəl düşünün

Azərbaycan qanunlarında olan bolşuqlardan biri də məhz bu sahədədir. İnternetdə şəxsiyyəti təhqir edən, şərəf və layaqəti təhqir edən yazıların fakt kimi məhkəmədə istifadə edilə bilər. Amma bunun mümkün olması üçün vətəndaş jurnalistikası haqqında qanun, eləcə də internetdə şərəf və ləyaqətin alçaldılması haqqında qanunvericilik olmalıdır.

Cinayət qanunvericiliyində konkret olaraq təhqir və böhtan barədə ayrıca maddələr nəzərdə tutulub. Bu qanuna görə şəxsin barəsində rüsvayedici, şəxsiyyətini alçaldan, imicinə zərər vuran, sosial statusunu zərbə altına qoyan yalan məlumatların yazılması da nəzərdə tutulur. Rüsvayedici məlumatlar kütləvi çıxışlarda, mətbuatda və kütləvi nümayiş etdirilən hər hansı bir əsərdə ola bilər. Təhqir etmək şəxsi alçaldıcı sözlərə məruz qoymaq, böhtan etmək isə şəxsin barəsində həqiqətə uyğun olmayan hər hansı məlumatların yayılması deməkdir. Əgər söhbət konkret olaraq böhtandan gedirsə bu, Cinayət Məcəlləsinin 147-ci, 148-ci (böhtan atma, şərəf və ləyaqətin təhqiri) maddələri ilə məsuliyyət daşımaq anlamına gəlir.

### Başqasının şərəf və ləyaqətini alçaltmaq sizə baha başa gələr

Başqa şəxsin şərəf və ləyaqətini nalayiq formada alçatmaq həmin şəxsin şəxsiyyətinə mənfi qiymət verməklə, onu əhatənin, yəni dostlarının, tanışlarının gözündə nüfuzdan salan hərəkətlərdə xarakterizə olunur. Şərəf və ləyaqəti alçatma hərəkətləri müxtəlif formalarda həyata keçirilə bilər. Yazılı, şifahi və ya bədən hərəkətləri ilə. Şifahi formada şərəf və ləyaqəti alçaltmaq söyməklə, nalayiq sözlər deməklə, haqqında ələsalıcı ifadələr işlətməklə və s. törədilə bilər.

Ləyaqətin yazılı formada alçaldılması məktubda, hər hansı müraciətdə, məsələn ərizə, şikayət və yaxud təklifdə və s. əks oluna bilər. Şərəf və ləyaqəti alçaltmaq birinin üzünə tüpürməklə, şillə vurmaqla, mimika və jestlərlə başqa şəxsi yamsılamaqla və s. hərəkətlərlə də edilir. Şərəf və ləyaqəti alçaltmaq təhqir olunan şəxsin iştirakı olmadan da törədilə bilər. Mühüm olan odur ki, şərəf və ləyaqəti kütləvi çıxışda, kütləvi nümayiş etdirmə və kütləvi informasiya vasitəsilə, internet və sosial şəbəkə vasitəsi ilə alçaldılmış olsun.

Kütləvi çıxış dedikdə, hər hansı şəxsin şərəf və ləyaqətini alçaldan və ya onu nüfuzdan salan məlumatları ən azı 2 nəfər kənar şəxsin görə, eşidə və qavraya biləcəyi formada ifadə etmə başa düşülür. Kütləvi nümayiş etdirilən əsər dedikdə, ən azı 2 nəfər kənar şəxsin görə və ya qavraya biləcəyi şəraitdə nümayiş etdirilən əsərlər (fotoşəkillər, rəsm əsərləri, kinematoqrafiya əsərləri, reklam və sair) başa düşülür.

Kütləvi informasiya vasitəsi və kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatı dedikdə, dövri mətbu nəşrlər, teleradio proqramları, kinoxronika proqramları, sosial internet şəbəkələri, dövri mətbuatın və teleradio kanallarının internet saytları və digər yayım formaları başa düşülür. Qanun bu zaman ölçü götürür.

Bura Facebook, İnstagram, TikToK, Youtube platformasını da əlavə edə bilərik. Təhqirə görə 16 yaşına çatmış fiziki şəxs və daha böyük şəxslər cinayət məsuliyyətinə cəlb oluna bilər. Qüvvədə olan Cinayət Məcəlləsinə əsasən isə təhqirə görə aşağıdakı cəza nəzərdə tutulur: 1000 manatdan 5000 manatadək miqdarda cərimə və ya 240 saatdan 480 saatadək müddətə ictimai işlər və ya 1 ilədək müddətə islah işləri və ya 6 ayadək müddətə azadlıqdan məhrum etmə. Lakin bir çox hallarda bundan məlumatsız olan insanlar məhkəməyə müraciət etmir və qarşı tərəf cəzasız qalır.

### İnternetdə xüsusi təyinatlı gərəklidirmi?

İnternetdə şərəf və ləyaqəti alçaldan insanların cinayət məsuliyyətinə cəlb edilməsi üçün bir çox ölkənin sərhədləri çərçivəsində internet-xüsusi təyinatlı yaradılıb. İnternetdə xəbər və məqalələri müzakirə edərkən istifadəçilər respublikanın tanımış şəxsləri barəsində xoşagəlməz ifadələr işlədir, çox vaxt onları təhqir də edirlər. Təhqir edənlərin əksəriyyəti öz kompüterindən yox, hər hansı internet-klubda, saxta ad altında iş görür.

Razılaşarsınız ki, bizim ölkədə də gizli qüvvələrə işləyərək müəyyən edilmiş şəxsin ünvanına təhqir, söyüş yağdıran "qəhrəmanlar" da az deyil. Daha çox "Facebook"da məşhur olan bu insanlar saxta profil açır, qeyri-müəyyən profil rəsmi qoyur, "haqqında" bölməsinə dəqiq heç bir şey yazmır. İsveçdə oturub hazırda Mərakeşdə olduğu barədə statuslar yazır. Tapşırıq alanda isə ona nişan verilmiş şəxsin haqqında yalan-böhtan yazır, şantaj edir. Məhz belə anda xüsusi təyinat internetə ehtiyac duyulur.

Ümumiyyətlə, ekspertlər hesab edir ki, bu cür internetə hər bir cəmiyyətdə ehtiyac duyulur. İKT mütəxəssisi Sübhan Sultanovun sözlərinə görə xüsusi təyinatlı internet xidməti vasitəsi ilə saxta profillər altında söyüş söyənləri, təhqir edənləri bir neçə saniyədə təyin etmək olur: "Bununla internetdə təhqir və söyüşləri azaltmaq, şəxsin alçaldılması hallarının yığışdırılmasına nail olmaq olar. Dövlət başçısının, nazirlərin, millət vəkillərinin işini tənqid etmək normaldır, çünki bu hər sivil ölkədə var. Təəssüf edirəm ki, insanlar təhqirlə tənqidi ayırd edə bilmirlər. İctimai şəxsin fəaliyyəti bir kənarda qalır, ailəsinə dil uzadırlar. Bizim ölkədə də bir çox ölkədə tətbiq edilən internet-xüsusi təyinatlı xidmətini tətbiq etmək olar, zənn edirəm ki buna imkanımız var. İnsanlar tənqid yox, təhqir edir, söyüşlərlə şərh yazır, şərəf və ləyaqəti alçaldır, onlar bu əməllərinin bir cəzası olduğunu bilməlidirlər.

Məlumat üçün bir daha qeyd edək ki, internet-xüsusi təyinatlı sistemi əsasən internetdə saxta profil, ad ilə söyüş söyən, təhqir yazan insanları aşkarlamaq və cinayət məsuliyyətinə cəlb etmək üçün nəzərdə tutulub. Daha aydın dillə ifadə etsək, daha "saxta profil" adı ilə məsuliyyətdən yaxa qurtamaq mümkün olmayacaq. Çünki, şəbəkəni idarə edən adminlərdə, şəbəkə liderində və ya sahibində, ölkənin baş aidiyyatı qurumunda istifadəçilərin bütün İP-ləri və barələrində dəqiq məlumat olur. Problem sadəcə cinayətkarın ələ keçirilməsində vardı, əgər yeni sistem tətbiq edildikdə facebookda söyüş söyən cəmi bir neçə saniyəyə təyin edilir, bir neçə dəqiqə ərzində olduğu ölkənin rəsmi orqanlarına xəbər ötürülür və dərhal yaxalanır.

***Lalə Mehralı***

SƏS
12 iyul
2023-cü il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# ŞOK FAKT: "Qazlı içkilər sümük əriməsi yaradır!"

*Mütəxəssis aydınlıq gətirdi*



**Mövsümdən asılı olmayaraq, ən çox istifadə edilən içkilər qazlı içkilərdir. Özəlliklə, uşaqların sevdiyi rəngli və qazlı içkilərin insan orqanizminə zərərləri az deyil.**

Qazlı içkilərin zərərləri barədə qida mütəxəssisi Ağa Salamov SİA-ya danışıb: "Qazlı və rəngli içkilər birinci növbədə mədə-bağırsaq sisteminə mənfi təsir göstərir, sıradan çıxarır. Qazlı içkilər beyində oreksin maddəsinin aşağı düşməsinə səbəb olur. Bu da onların tərkibində olan şəkərlərdən asılıdır. Çünki boş karbohidratlardır, boş karbohidratların istehlak edilməsi beyində oreksin maddəsinin azalmasına gətirib çıxarır və bu da insanlarda yorğunluq, əzginlik, xüsusən də uşaqlarda laqeydlik və oxumağa həvəssizlik kimi hallar meydana çıxarır.

Ona görə də insanlar rəngləndirilmiş və qazlı içkilərdən uzaq durmalıdır. Bu rəngli, qazlı içkilərin də BH dərəcəsi də aşağıdır. Məsələn, insan 7.4 BH dərəcəsi olan su istehlak etməlidir amma qazlı içkilər içir. Bunların da BH dərəcəsi 2.4-2.5 olur, çünki tərkibində fosfor turşusu vardır. Fosfor turşusu da rəngli qazlı içkilərə vurulan şəkərin balanslaşdırılması üçün istifadə edilən qatqı maddəsidir. Fosfor turşusu isə uşaqlarda sümük inkişafına zərərlidir, yaşlı insanlarda da sümük əriməsinə gətirib çıxaran başlıca amillərdən biridir. Buna görə də xüsusən də yaşlılar və uşaqları rəngli və qazlı içkilərdən uzaq tutmağa çalışmalıyıq".

"Bu zaman belə sual ortaya çıxır: İndi nə içək, ancaq su içməliyik? Ancaq su içilməlidir deyə bir şey yoxdur. Mövsümi meyvələrdən hazırlanmış kompotlar, mövsümündə yetişən meyvələrin təbii şirələri kimi içkilər sağlamlığımıza faydalıdır, vitaminlərlə zəngindir, immun sisteminə də müsbət təsirini göstərə bilir", - deyə mütəxəssis qeyd edib.

***Aysel Naibli***



## *Cennifer Lopez də boşanır - qısqanclığa görə...*

**Daha bir məşhur cütlük də boşanmaq üçün məhkəmə qapılarına göz dikib. "Marça" nəşri iddia edir ki, məşhur cütlük Cennifer Lopez və Ben Afflek boşanmağa qərar veriblər. Bildirilir ki, uzun müddətdir münasibətləri pisləşən cütlük boşanmağı aktuallaşdırırlar. Müğənni xanım bir neçə gündür vəkilləri ilə danışıq apararaq nikahdan əvvəlki razılaşmanı müzakirə edib. Sənəddə boşanma halında əmlakın necə bölüşdürüləcəyi əks olunub.Onun bu addımını Afflekin dəstəklədiyi və sənədi imzalamağa hazır olduğu vurğulanıb.**

# Günəş vannasını necə düzgün qəbul etməliyik?



"Günəş vannası qəbul etməyin də öz qaydaları var. Belə ki, günəşlənmədən öncə günəş şüalarının zərərinə qarşı iki saatdan bir SPF kremlərindən, günəşlənmə bitdikdən sonra isə nəmləndirici kremlərdən istifadə etmək lazımdır. Günəşdən qoruyucu kremlərdən istifadə edərkən üz və bədən üçün fərqli SPF kremlər seçilməlidir. Üz üçün SPF kremlər çeşidli antioksidantlar və dərinin yaşlanmasına qarşı olan xüsusi qatqılardan hazırlanır. Bu kremlərdən istifadə edərkən üz dərisinin xüsusiyyəti - həssas və ya yağlı cild olması nəzərə alınması məsləhət görülür". SİA xəbər verir ki, bu sözləri açıqlamasında həkim-mütəxəssis Yeganə Cəfərova deyib.

Onun sözlərinə görə, günəş vannasını günün müəyyən saatlarında qəbul etmək lazımdır: "Məsələn, saat 12:00-15:00 arası günəş şüaları qəbul etmək məsləhətli deyil. Çünki bu saatlarda günəş şüaları dəriyə kanserogen və yaşlanma təsiri göstərir. Lakin saat 12:00-dək və 15:00-dan sonra Günəş şüaları atmosferdən yerə yayılır, bu zaman isə ultrabənövşəyi şüalar daha az zərərli olur. Buna baxmayaraq, bu saatlarda da Günəş şüalarının zərərli təsirlərindən qorunmaq üçün SPF kremlərdən istifadə etmək lazımdır".

Mütəxəssis sözlərinə davam edərək bildirib ki, əgər günəşləndikdən sonra dəri soyulmağa başlayırsa, bu, düzgün olmayan və keyfiyyətsiz günəş şüalarının təsirindən baş verir. Bu özü də dərinin birinci dərəcəli yanıq travması alması anlamına gəlir. Bu tip yanıqlar bəzən dəriyə su toplayır, bəzən isə dəridə su toplamamaqla təzahür edir".

***Ləman Sərraf***


*Baş redaktor:*
**Bəhruz Quliyev**



Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**



"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**


Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.


**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4000**


# İpoteka kreditlərinə əlçatanlıq hansı səviyyədədir?



"İpotekanın əlçatanlığına problem yaradan əsas məsələ insanların gəlirlərinin tam rəsmiləşməməsidir. Yəni ipoteka krediti verildikdə yalnız rəsmi gəlirlər nəzərə alınır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli deyib. Onun sözlərinə görə, işlədiyiniz halda gəlirləriniz tam şəkildə rəsmiləşmirsə, bu zaman ipotekaya əlçatanlıq aşağı düşəcək: "İkinci məqam isə mənzillərin, əmlakın rəsmiləşməsi ilə bağlıdır. Bakıda 10 minlərlə mənzillərin sənədi yoxdur. İpoteka isə sənədsiz mənzilləri nəzərə almır. Bu da təbii ki, ipotekaya cəlb edilən predmetlərin aşağı düşməsinə səbəb olur.

Qeyd etdiyim iki məqam məhz Azərbaycana məxsus idi. Lakin ipoteka zamanı ilkin ödəniş tələbi isə hər yerdə belədir və göstəriciləri aşağı salan səbəblərdən biridir. Hazırda ipoteka əlçatanlığın artırılması istiqamətində də işlər aparılır. Amma istənilən halda sadalanan məsələlər əlçatanlığı aşağı salır".